Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

7 APREL 2020-ci il

№ 51 (4182)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# 120 DÖVLƏT SEPARATÇI «DQR»DƏ SEÇKİNİ TANIMADI, QONDARMA QURUMUN ÖZÜNDƏ SEÇKİYƏ QARŞI ÇIXIŞLAR BAŞLADI...

■ səh. 5 ■

Azərbaycanın ilk maska istehsalı müəssisəsinin açılışında Prezidentin xalqa müraciəti - Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək!

■ səh. 8-9 ■

Azərbaycan koronavirusun iqtisadi təhdidlərini neytrallaşdırır - sosial sahədə də ciddi fəaliyyətlər var...

■ səh. 7 ■

Ermənilər arasında çəkişmə Qarabağ münaqişəsinin həllini tezləşdirə, "seçki şousu" Paşinyanın sonu ola bilər...

■ səh. 6 ■

Azərbaycanın yaratdığı format yenidən neft hasilatçılarını qiymət böhranından xilas edir

■ səh. 9 ■

Xüsusi karantin rejimində onlayn müraciətlərdə dəxli olmayan mövzular - ilk rəqəmlər açıqlandı, sonra deyirlər ki, cavablar gecikir...

■ səh. 3 ■

Azərbaycanda yeni iqtisadi qurumlar - Dövlət İnvestisiya Holdinqi və İnşaat Korporasiyası...

■ səh. 11 ■

Koronavirusla mübarizə dövründə sosial paketlərin davamlılığına daha bir fakt - ipoteka kreditlərinə əlavə 90 milyon manat...

■ səh. 12 ■

Ölkədə süni un qıtlığı yaratmaq cəhdləri var - bəzi marketlər 50 kq un kisəsini 26-dan 28-30 manata qaldırıb

■ səh. 13 ■




■ səh. 4 ■

## Azərbaycanda koronavirusa görə testlərin sayı 10 min də artdı - bir gündən sonra 45 min...



Vətəndaşlarımızı daha məsuliyyətli olmağa çağıran yeni fakt - 2-3 yaşlı uşaqlar arasında da yoluxma var...

■ səh. 4 ■



«Evdə qal» hərəkatının böyük müsbət cəhətləri üzə çıxır...

■ səh. 3 ■

Paşinyanın əlində «koronavirus fürsəti» - Fövqəladə vəziyyət uzadıldı, məcburi istefadan yayınmağın üsulu...

■ səh. 5 ■

■ səh. 10 ■

Koronavirusla müharibə dövründə Azərbaycan dövlətinin daha bir üstünlüyü - əcnəbilər deportasiya edilmədi, onlar da müalicə olunur...



■ səh. 13 ■

Əhaliyə güzəştli tariflə işıq limiti artırılır - 200+...



■ səh. 12 ■

Koronavirusun ziyanlı nəticələrinə görə hansı sahibkarlar əmlak və yer üçün icarə haqqından azad edilir...



■ səh. 15 ■

Zəruri hesab edilən məhsullar üçün idxal rüsumunun sıfırlanması bazarlarda vəziyyəti necə dəyişəcək...



■ səh. 15 ■

Koronavirusun Azərbaycanda həyatı iflic edə bilmədiyinə daha bir sübut - teatrlar da onlayn fəaliyyətə başlayıb





# Prezident İlham Əliyev əfv sərəncamı imzaladı

**Dünyada koronavirus (COVID-19) infeksiyasının yayılması ilə əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan, yaşı 65-dən yuxarı olan məhkumların və onların ailə üzvlərinin Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxılıb.**

Baki-xeber.com Azərbaycan Prezidentinin rəsmi saytına istinadən xəbər verir ki, Prezident İlham Əliyev məhkumların sağlamlıq vəziyyətini, cəza çəkdikləri müddətdə davranışlarını nəzərə alaraq və humanizm prinsiplərinə əsaslanaraq 176 nəfərin cəzanın çəkilməmiş hissəsindən azad edilməsi barədə sərəncam imzalayıb.



## Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna yeni İcraçı direktor təyin edildi

**Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2020-ci il tarixli Sərəncamı ilə Əhməd Məhəmməd oğlu İsmayılov Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun İcraçı direktoru vəzifəsinə təyin edilib.**

O, bundan əvvəl Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyinin direktor müavini vəzifəsində çalışıb.

Əhməd İsmayılov 1980-ci ildə anadan olub. 2002-ci ildə Bakı Dövlət Universitetinin "Hüquqşünaslıq" ixtisası üzrə bakalavr, 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğunun təşkili və idarə edilməsi ixtisaslaşması" ixtisası üzrə magistr dərəcəsi alıb.

2002-ci ildə Bakı Neft Energetika Kollecində müəllim, 2004-2005-ci illərdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının Vətəndaş və siyasi hüquqların müdafiəsi sektorunda böyük məsləhətçi, 2005-2008-ci illərdə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinin Hüquq şöbəsində baş məsləhətçi vəzifəsində işləyib.

2008-2011-ci illərdə Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının Hüquq, kadr və beynəlxalq əlaqələr şöbəsinin müdiri, 2011-2018-ci illərdə Aparat rəhbəri vəzifəsində çalışıb.

20 iyun 2018-ci il tarixdən Dövlət Dəniz Agentliyinin direktor müavini vəzifəsində çalışıb.

2009-2015-ci illərdə Yeni Azərbaycan Partiyasının "Dənizçilər" İlk Ərazi Təşkilatının sədri olub.

Əhməd İsmayılov Azərbaycan Respublikası Prezidentinin 25 iyun 2014-cü il tarixli, 580 nömrəli Sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı, 23 iyun 2017-ci il tarixli, 3028 nömrəli Sərəncamı ilə "Tərəqqi" medalı və 20 oktyabr 2018-ci il tarixli, 587 nömrəli Sərəncamı ilə "Gəmiçilik sahəsində xidmətlərə görə" medalı ilə təltif edilib.

O, 2019-cu ildən etibarən Heydər Əliyev Fondu "Regional İnkişaf" İctimai Birliyində ekspert vəzifəsində çalışıb.

Ailəlidir.

# Operativ Qərargah saxta yolla karantin rejimini pozmaq cəhdlərilə bağlı xəbərdarlıq etdi

Azərbaycan Respublikasında tətbiq olunmuş xüsusi karantin rejimi əhalinin sağlamlığının qorunması və ölkənin təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyır.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, tətbiq olunmuş qaydaların, o cümlədən, hərəkət məhdudiyyətinin vətəndaşlar tərəfindən icra olunması təqdirəlayiq hal kimi qiymətləndirilir.



Buna baxmayaraq, xüsusi karantin rejimi qaydalarının pozulmasına cəhdlər də müşahidə olunur.

Fəaliyyətinə icazə verilən bəzi hüquqi və fiziki şəxslər kənar vətəndaşların adlarını icaze.gov.az portalına daxil etməklə, həmçinin, bir sıra kütləvi informasiya vasitələri əməkdaşları olmayan ayrı-ayrı şəxslərə saxta vəsiqələr verməklə onların maneəsiz hərəkətinə şərait yaradır və xüsusi karantin rejiminin tələblərini kobud şəkildə pozurlar.

Operativ Qərargah xəbərdarlıq edir ki, xüsusi karantin rejiminin tətbiqinə nəzarət edən aidiyyəti qurumlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək müqaviləsi bildirişi" elektron sisteminə müraciət etməklə istənilən şəxsin əmək fəaliyyəti barədə müvafiq məlumat əldə etmək imkanına malikdirlər.

Vətəndaşın elektron sistemdə əmək müqaviləsinin olmadığı təqdirdə, yanlış məlumatı icaze.gov.az portalına daxil edən və ya saxta sənədi verən qurum və ondan istifadə edərək xüsusi karantin rejimini pozan şəxslər barədə qanunvericiliyə uyğun olaraq ölçü götürüləcək.

# Azərbaycanda daha 57 nəfər koronavirusa yoluxdu, 12 nəfər sağaldı

**Azərbaycan Respublikasında 57 yeni koronavirus (COVID-19) infeksiyasına yoluxma faktı qeydə alınıb, həmin şəxslər xüsusi rejimli xəstəxanalara yerləşdirilib.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a verilən məlumata görə, eyni zamanda, koronavirus infeksiyasına yoluxmuş 12 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.



Ümumilikdə, ötən dövr ərzində ölkəmizdə koronavirus infeksiyasına yoluxmuş 641 şəxsdən 44 nəfəri müalicə olunaraq sağalıb, 7 nəfər vəfat edib, 590 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Onlardan 11 nəfərin vəziyyəti ağır, 17 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ölkəmizdə müxtəlif karantin zonalarına yerləşdirilən 4369 nəfərin müayinəsi ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 45 mindən artıq test aparılıb.

# "Evdə qal" hərəkatının böyük müsbət cəhətləri üzə çıxır...

**Dünya yeni bir dəyişikliklə üz-üzə qalıb, gözəgörünməz düşmən - koronavirusla mübarizəyə başlayıb. Qorxu, narahatlıq, həyəcan dolu və "sabah necə olacaq" fikri ilə düşüncələrə qərq olmuşuq. Ancaq önəmli olan odur ki, dünya ölkələri ilə müqayisədə dövlətimiz, ölkə başçısı İlham Əliyev xalqımızı, Azərbaycanımızı qorumaq üçün bütün tədbirlər planını həyata keçirməyə çalışır.**

Biz də bu xeyirxah niyyətə səs verməklə, "Evdə qal" prinsipinə əməl etməklə dünya üzərində dolaşan bəladan xilas ola bilərik. Bunu anlayan düşüncəli insanlarımız, cəmiyyətdə mövqeyi olan tanınmış simalar əhalimizə evdə qalmağın xeyirli tərəfini izah edirlər. Ölkəmizdə bu yöndə böyük maarifləndirmə kampaniyası aparılır. İlk növbədə vətəndaşlarımıza aşılanıb ki, yalnız bu qaydaya əməl etməklə biz özümüzü və ölkəmizi pandemiayanın fəsadlarından xilas edə bilərik.

Bununla yanaşı, sosial şəbəkələrdə aparılan müzakirələrdən, paylaşılan video və fotolardan görünür ki, "evdə qal"ın müsbət tərəfləri də kifayət qədərdi. Məsələn, görünən budur ki, insanlar ailələri ilə daha çox vaxt keçirməli olurlar, övladlarına , onların dərslərinin hazırlanmasına çox vaxt ayıra bilirlər. Vaxtın çoxluğu onlara maraqlı filmləri izləməyə, mütaliə etməyə imkan verir. Hətta bu müddət ərzində "Facebook"da evdə çox vaxt keçirən kişilərin mətbəxdə hazırladıqları gözəl yeməklərlə bağlı paylaşımlarına da tez-tez rast gəlinir. Ev şəraitində idman edən adamlar da çoxalıb. Eyni zamanda avtomobillərin az hərəkəti, sənaye müəssisələrinin işinə verilən fasilə təbiətin də nəfəs almasına şərait yaradıb. Bunun ekoloji vəziyyətə çox faydasının olduğu bildirilir. Təbiidir ki, hər kəs həyatın normal axara qayıtmasını istəyir. Bu da mütləq olacaq. Ancaq məcburi qaydada əməl etməli olduğumuz özünütəcrid hərəkatı çərçivəsində sadalanan faydalı əməllərdən də yaralanmalıyıq ki, boş vaxtımız hədər getməsin. Bununla yanaşı, biz "evdə qal" kampaniyasına qarşı çıxanlara da ara-sıra rast gəlirik. Onların arqumentləri heç




vaxt əsaslandırılmış sayıla bilməz. Çünki hər nə desələr belə, sonda insanların bir müddət təcrid edilməsinin zəruriliyini dərk edəcəklər. Çünki bəşəriyyəti bürüyən bu bəladan yalnız bu yolla xilas olmaq mümkündür.

Bu günlər xalqımızın bir müsbət kefiyyətini də üzə çıxramış oldu. Sonsuz sayda insanların ehtiyacı olan ailələrə maddi və ərzaq yardımı etdiyinin şahidi oluruq. Bu müddət ərzində çoxlu sayda yardımlaşma kampaniyaları aparılır. Hətta bəzi marketlərdə "Ehtiyacın yoxdur ver, ehtiyacın varsa götür" adlı xüsusi bölümlər yaradılıb. İmkanı olan vətəndaşlarımız həmin yerə istədikləri ərzaq növünü qoyur, ehtiyacı olanlar gəlib onları pulsuz götürə bilir. Bütün bunlar bir daha sübut edir ki, biz birlikdə güclüyük. Yalnız birlik nümayiş etdirməklə, qaydalara tabe olmaqla bu bəladan xilas ola bilərik.

*Məhəmmədəli QƏRİBLİ*

# Xüsusi karantin rejimində onlayn müraciətlərdə dəxli olmayan mövzular - ilk rəqəmlər açıqlandı, sonra deyirlər ki, cavablar gecikir...

***Nicat Qasımlı:** "Bir az məsuliyyətli davransaq, sistemin işində problem olmaz"*

**Mesajla icazə almanın ilk günündə maraqlı vəziyyət yaranıb. Evdən çıxmaq istədiklərinə dair vətəndaşlar tərəfindən icazə əldə etmək üçün SMS-lə 8103 qısa nömrəsinə 223 min telefon nömrəsindən 456 min SMS göndərilib. Verilən məlumata görə, daxil olan mesajlardan təqribən 284 mini, yəni 62 faizi aidiyyəti olmayan məzmunla bağlı göndərildiyindən təsdiq cavabı almayıb.**

Qeyd edək ki, yaşayış yerini tərk etmək üçün qeyri-ciddi, aidiyyəti olmayan SMS-lərin göndərilməsi yaşayış yerini zəruri olaraq tərk etmək istəyən vətəndaşlara SMS-in vaxtında göndərilməsinə maneə törədir. Göründüyü kimi, vətəndaşlarımız yaradılan şəraitdən sui-istifadə edərək icazə almaq üçün lazımsız mesajlar göndərirlər. Bu da həqiqətən evdən çıxmaq zərurəti olan şəxslərin işini, icazə alma prosedurunu bir qədər ləngitmiş olur.

Belə halların yaranmaması ilə bağlı vətəndaşlarımızın üzərinə hansə məsuliyyət düşür?

İnformasiya Kommunikasiya Texnologiyaları üzrə mütəxəssis, VR360.az şirkətinin direktoru Nicat Qasımlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, vətəndaşlarımız maksimum belə hallardan çəkinməlidirlər:"Biz sizinlə bu sistemin işə düşməsindən əvvəl müsahibəmizdə demişdik ki, 8103 SMS xidmətinin işində problem olmayacaq. Gördük ki, sistem çalışdı. Ancaq onun işini ləngidən bəzi vətəndaşlarımız oldu. Verilən rəsmi məlumatdan görünür ki, edilən müraciətlərin böyük əksəriyyəti lüzumsuz olub. Hər kəsi belə hallardan çəkinməyə çağıram. Məlum olub ki, ilk gündə göndərilən SMS-lərin 60 faizi daha çox sistemi yoxlamaq məqsədilə göndərilən müəyyən SMS-lərdir. Ancaq qərarda zəruri halların nə olduğu konkret kodlarla göstərilib. Lakin o hallara aidiyyatı olmayan mətnlər göndərilir. Vətəndaşlarımız anlamalıdır ki, burda insan faktoru ilə bağlı məsələ var. Həmin mesajlara bir-bir cavab verilməlidir. İnsanlar başa düşməlidirlər ki, onların bu lazımsız SMS-ləri yaşayış yerini tərk etməli zəruri olan vətəndaşın sorğusunu cavablandırmağı




gecikdirə bilir. Vətəndaşlar bilməlidirlər ki, bu həm də karantin qaydalarının kobud şəkildə pozulmasıdır. Buna görə məsuliyyət də nəzərdə tutulur. Həmin şəxslər bilməlidirlər ki, bu gün Operativ Qərargahın verdiyi qərarlar karantin rejiminin qaydalarıdır. Bu qaydaları pozan hər bir şəxs qanunvericiliyə uyğun məsuliyyət daşıyır. Bunu da nəzərə almaq lazımdır ki, lüzumsuz SMS-lərin göndərilməsi şəbəkənin yüklənməsinə səbəb olur.

**Bu sistemin qurulub istifadəyə verilməsi belə böyük hadisədir. Məndə olan məlumata görə, bunu bizim yerli İKT mütəxəssisləri qurub ərsəyə gətirib. Hazırda bu sahədə iki mükəmməl sistem fəaliyyət göstərir.Biri vətəndaşların SMS-lə icazə almaq sistemi, digəri isə dövlət qurumlarının, özəl təşkilatların öz əməkdaşları üçün aldığı icazə sistemidir. Bir az məsuliyyətli davransaq, sistemin işində problem olmaz".**

*Məhəmmədəli QƏRİBLİ*

# Azərbaycanda koronavirusa görə testlərin sayı 10 min də artdı - bir gündən sonra 45 min...

**Ölkəmizdə koronavirusa yoluxma hallarının müəyyən edilməsi üçün əsas amil olan testlərin dövlət tərəfindən alınması və koronavirusa yoluxma şübhəsi ilə karantinə alınan şəxslərə tətbiq edilməsi nəticə verməkdədir.**




***Adil Qeybulla:** "Testlərin sayının 45 minə yaxınlaşdırılması virusa yoluxan daha çox xəstənin müəyyən edilməsində rol oynayır"*

***Leyla Bayramlı:** "Ölkəmizdə testlənmənin sayının 10 min fərqlə artması Azərbaycan dövlətinin, səhiyyəsinin vətəndaşlarımıza qayğısının, diqqətinin, onların sağlamlığının keşiyində dayanmasının təzahürüdür"*

Bildiyimiz kimi, ilkin dövrdə infeksiya faktları müəyyən olunanda Azərbaycan yalnız Ümumdünya Səhiyyə Təşkilatından məhdud şəkildə testlər alırdı və həmin dövrdə mövcud imkanlar çərçivəsində müayinələr aparılırdı. Sonrakı dövrdə ölkəmiz artıq özü kifayət qədər test almağa başladı. İlkin vaxtlar ölkədə gündə cəmi 200-300 test keçirilirdisə, indi müayinələrin sayı mindən çoxdur. Aprelin 4-ə olan rəsmi məlumata görə, ölkədə 35 mindən artıq test keçirilib. Bugünkü məlumata görə isə Azərbaycanda koronavirusla bağlı keçirilmiş testlərin sayı 45 minə çatır. Bu barədə TƏBİB-in Azərbaycanda koronavirusla əlaqədar son sutka ilə bağlı açıqladığl statistik göstəricilərdə qeyd edilib. Məlumatda Azərbaycanda koronavirusla bağlı 3 080 test edildiyi, 63 nəfərin yeni yoluxduğu, iki nəfərin isə öldüyü bildirilib. Statistikaya əsasən, ümumi test sayı 44.753, ümumi yoxlama faktı 584-dür.

Ekspertlər hesab edirlər ki, testlərin sayının 45 min civarında olması faktı, müayinələrin genişlənməsi yoluxma hallarını müəyyənləşdirmək üçün imkanları artırıb.

Professor Adil Qeybulla "Bakı-Xəbər"ə bildirdi ki, hamının testdən keçirilməsinə ehtiyac yoxdur: "Əslində, hamını testdən keçirmək lazım deyil. Türkiyə təcrübəsi göstərir ki, buna lüzum yoxdur. Sadəcə olaraq karantindən gələn, ölkəyə daxil olan, şübhəli əlamətlərə malik xəstələr yaxşı olar ki, testdən keçsinlər. Qalan halda, insanların kütləvi şəkildə testdən keçirilməsinə heç bir zərurət yoxdur. Testlərin sayının 45 minə yaxınlaşdırılması virusa yoluxan daha çox xəstənin müəyyən edilməsində rol oynayır".

Həkim-terapevt Leyla Bayramlı isə hesab edir ki, testlərin sayının çoxalması yoluxma hallarının müəyyən edilməsinə və yoluxanlarla bağlı vaxtında müalicə tədbirlərinin həyata keçirilməsinə böyük imkanlar açıb: "Ölkəmiz daha çox test əldə etdikcə, koronavirusa yoluxma halları ilə bağlı daha dəqiq nəticələr, faktlar əldə edə bilirik. Aprelin 4-də ölkəmizdə 35 min test keçirildiyi qeyd edilirdisə, hazırda bu, 45 mini əhatə edir. Koronavirsa yoluxmanın müəyyən edilməsi üçün artıq 45 minə yaxın testin keçirilməsi müsbət haldır. Əlbəttə, ölkəmizdə testlənmənin sayının 10 min fərqlə artması Azərbaycan dövlətinin, səhiyyəsinin vətəndaşlarımıza qayğısının, diqqətinin, onların sağlamlığının keşiyində dayanmasının təzahürüdür" - deyə həkim bildirdi.

***İradə SARIYEVA***

# Vətəndaşlarımızı daha məsuliyyətli olmağa çağıran yeni fakt - 2-3 yaşlı uşaqlar arasında da yoluxma var...

**COVID-19 virusunun yayıldığı ilk vaxtlarda uşaqların bu virusa yoluxmadığı və onlarda koronavirusa qarşı təbii immunitet olduğu bildirilirdi. Hətta Ümumdünya Səhiyyə Təşkilatının ilkin hesabatlarında bu virusa daha çox yaşlıların yoluxduğu qeyd edilirdi, bu sənədlərdə uşaqların koronavirusa yoluxmasına dair heç bir informasiya yox idi.**



***Vaqif Qarayev:** "Uşaqlar arasında koronavirusun aşkarlanması valideynlərin uşaqlarını daha çox qorumalı olduğuna dair bir mesajdır"*

*"Azərbaycanda uşaqların koronavirusa yoluxması ilə bağlı məlumata yeni rast gəlinməyə başlayıb, indiyə qədər bu virus uşaqlar arasında müşahidə edilməmişdi"*

Lakin pandemiyanın qonşu İranda geniş yayılması və yoluxma hallarının genişlənməsi nəticəsində uşaqların da bu virusa yoluxduğu üzə çıxdı.

Məlumdur ki, İranda 3, 6 yaşlı uşaqların bu virusdan həyatını itirdiyi barədə məlumatlar yayılmışdı. İranda yaşanan bu acı olaydan sonra başqa ölkələrdə də koronavirusa tutulanlar və bu virusdan ölənlər arasında hətta uşaqların da olduğu rəsmən təsdiqləndi.

Azərbaycanda yoluxmanın qarşısının alınması üçün bütün lazımi tədbirlərin həyata keçirilməsinə, məktəblərin, məktəbəqədər müəssisələrin qapadılmasına, uşaqların ev şəraitində olmasına baxmayaraq, çox təəssüf ki, ölkəmizdə də bu virusa yoluxanlar arasında uşaqlar da var.

TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı "Diqqət mərkəzi-Yekun" verilişində yaş spektrindən danışarkən bu faktın mövcudluğunu təsdiqləyib. "Azərbaycanda koronavirusa yoluxanlar arasında 2-3 yaşlı uşaq da var" - deyən R.Bayramlının sözlərinə görə, bu virus yaş sərhədi tanımır. "Süni tənəffüs aparatına bağlı bir xəstənin qidalanması, dərmanlarının verilməsi, gigiyenik yardımın göstərilməsi və s. bütün bunlar çox ağırdır. Artıq ölkəmizin bütün regionlarında az və ya çox yoluxma faktı var. Biz bir həftə əvvəl yoluxma faktları ilə bağlı təkxanalı rəqəmlərdən danışırdıq, indi cütxanalı rəqəmlərdən danışırıq. Dua edək ki, gələn dəfə üçxanalı rəqəmlərdən danışmayaq.

Bizim xəstəxana tutumumuz var. Qərar vermişik ki, simptomatik və ya asimptomatik olmasından asılı olmayaraq, bütün pozitiv xəstələri regionlar daxil olmaqla 22 xəstəxanaya yerləşdirək, tibb müəssisələrində onları təcrid edək. İkiaylıq bir təcrübəmiz var. Deyə bilərik ki, özünü qrip adı ilə evdə müalicə etmək istəyən şəxslərin sonradan vəziyyəti yaxşı olmur. Bu gün özünü çox yaxşı hiss edən sabah ağırlaşa bilər. Həmin şəxsləri biz nəzarət altında saxlamaqla, həm də onların ailə üzvlərini qorumuş oluruq.

Bu gün imkanımız buna yol verir. Ancaq gündəlik yoluxma halları üçxanalı rəqəmlərə çıxsa, vəziyyət çətin olacaq. Bizim 2-3 yaşdan 89 yaşa kimi yoluxmuş xəstəmiz var. Bu virusun yoluxması sərhəd tanımır" - deyə qeyd edib.

Tanınmış pediatr, tibb üzrə ekspert Vaqif Qarayev "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycanda uşaqların bu virusa yoluxması yeni faktdır, bundan əvvəlki dönəmlərdə uşaqlar arasında koronavirus aşkarlanmayıb: "Açığı, Azərbaycanda uşaqların koronavirusa yoluxması ilə bağlı məlumata yeni rast gəlinməyə başlayıb, indiyə qədər bu virus uşaqlar arasında müşahidə edilməmişdi. Onu da qeyd edim ki, əslində, burada təəccüblü heç nə yoxdur, çünki bu virus üçün yaş sərhədi yoxdur.

Bilirsiniz ki, ölkəmizdə daha çox böyüklər arasında yoluxma halları mövcuddur və yoluxanlar arasında uşaqların da olması təəssüf doğurur. Dövlət yoluxmanın ilk müşahidə edildiyi dövrdə çox zəruri bir addım atdı, uşaq bağçaları, məktəblər müvəqqəti olaraq bağlandı. Uşaqların evdə qalması və xəstəliyə yoluxmaması üçün bu tədbirin böyük əhəmiyyəti var. Amma, bununla belə, sərhəd tanımayan koronavirus pandemiyası uşaqlardan da yan keçməyib. Hesab edirəm ki, uşaqlar arasında koronavirusun aşkarlanması valideynlərin uşaqlarını daha çox qorumalı olduğuna dair bir mesajdır. Bu xəstəlik təəssüf ki, hər bir insanı yaxalaya bilər və bəzən görürsünüz ki, yaxalayır da".

***İradə SARIYEVA***

**Nə beynəlxalq hüquqa, nə də koronavirus epidemiyasına məhəl qoymayan erməni separatçıları martın 31-də işğal altındakı Qarabağ torpaqlarında növbəti "seçki" keçirdilər. Erməni mənbələrinin məlumatına görə, qondarma qurumun keçmiş "dövlət naziri" Araik Arutyunyan birinci nəticəni göstərib.**

# 120 dövlət separatçı "DQR"də seçkini tanımadı, qondarma qurumun özündə seçkiyə qarşı çıxışlar başladı...



***Hatəm Cabbarlı:** "Nüfuzlu ölkələr ikinci tur seçkilərinin ümumiyyətlə keçirilməsinin qarşısını almağa çalışmalıdırlar"*

İkinci yerdə "xarici işlər" "naziri" Masis Mailyan, üçüncü yerdə isə sabiq "təhlükəsizlik katibi", general Vitaliy Balasanyan olub. Lakın namizədlərdən heç biri lazım olan sayda səs toplaya bilmədiyi üçün "seçki" ikinci tura saxlanıb. Namizədlər arasında ikinci yeri tutan və müxalifətin təmsilçisi sayılan Masis Mailyan seçiciləri ikinci turda iştirak etməməyə çağırıb. O bunun səbəbini edilən saxtakarlıqlar və pandemiya dövründə seçkinin keçirilməsinin mümkünsüzlüyü ilə izah edib.

Qeyd edək ki, dünyanın bir çox ölkələri və nüfuzlu qurumları saxta "seçkilərin" nəticələrini tanımayıb və pisləyən bəyanat qəbul edib. Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosu da Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində təşkil olunmuş qondarma "seçkilər"lə bağlı açıqlama ilə çıxış edib. BMT-dən sonra ikinci ən böyük siyasi platforma olan və 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı ərazilərin güc yolu ilə əldə edilməsinin yolverilməz olduğunu vurğulayaraq, Azərbaycan Respublikasının ərazilərinin işğalı nəticəsində yaranmış vəziyyətin heç bir ölkə tərəfindən qanuni tanınmayacağını bəyan edib. Bununla əlaqədar olaraq, Qoşulmama Hərəkatına üzv ölkələr bu ilin 31 mart tarixində Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində keçirilən qondarma "seçkiləri" tanımadıqlarını və onları qanunsuz hesab etdiklərini ifadə edib. Sonda Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosu Bakı Zirvə Görüşünün Yekun sənədinin 662-ci paraqrafına istinad edərək, Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə və Ermənistan və Azərbaycan arasında münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həllinə dəstəyini bir daha ifadə edib.

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, qondarma qurumda "seçkilərdə" kimin "prezident" seçildiyi məlum olmayıb:"Çünki namizədlərdən heç biri 50+1 faiz səs baryerini aşa bilmədi. Bu səbəbdən də, ikinci tur elan olunub. Seçkilərin koronavirus pandemiyası dönəmində təsadüf etməsi isə bütün beynəlxalq ictimaiyyətə edilən böyük sayğısızlıqdır. Seçkilərdən beş gün keçəndən sonra ikinci nəticəni göstərən Masis Mailyan ikinci turun boykotuna çağırır. Dünən isə Xankəndinin mərkəzinə 100-lərlə adam çıxıb utancverici nəticənin ləğvini tələb edib. Onlar ümumiyyətlə separatçı qurumun mövcud rəhbərliyinin hamısının istefasını tələb edirlər. Bildirirlər ki, prosesdə inzibati resurslardan istifadə edilib. Bütün bu aksiyaların təşkilatçısı Masis Mailyandır. Onun niyə 5 gündən sonra fəallaşması bəzi dairələrdə sualların yaranmasına səbəb olub. Mailyan Sorosun adamı kimi tanınır. Görünür, bu sifariş də ona Qərbdən gəlib. Faktiki olaraq, qondarma qurumda mübarizə həm də namizədlərin arxasında duran güclər arasında gedir. Qondarma qurum bu "seçki" ilə özünü bir daha rüsvay etdi.

Pandemiya dövründə saxta bir "seçki" keçirməklə yanaşı, daxildə saxtakarlığın olduğu bildirilir. Əslində saxta qurumdan bundan artıq nəticə gözləməyə də dəyməzdi. Dünyanın nüfuzlu qurumları seçkini tanımayıb. Bu sırada Qoşulmama Hərəkatı üzv ölkələrinin də olması böyük nəticədir. Faktiki olaraq bu, dünyanın 120 ölkəsinin saxta "seçkilərlə" bağlı açıqladıqları mövqe anlamına gəlir. Hesab edirəm ki, beynəlxalq qurumlar, nüfuzlu ölkələr ikinci tur seçkilərinin ümumiyyətlə keçirilməsinin qarşısını almağa çalışmalıdırlar. Bunun üçün kifayət qədər hüquqi əsaslar da mövcuddur".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Ermənistan koronavirusun yayılmasının qarşısını almaq üçün fövqəladə məhdudiyyətləri uzadıb. Bu barədə ölkənin Baş naziri Nikol Paşinyan bildirib. Təxminən 3 milyon əhalisi olan Ermənistan Cənubi Qafqaz bölgəsində faiz nisbəti ilə ən yüksək təsdiqlənmiş yoluxma sayına malikdir.**

# Paşinyanın əlində "koronavirus fürsəti" - Fövqəladə vəziyyət uzadıldı, məcburi istefadan yayınmağın üsulu...




***Samir Adıgözəlli:** "Ermənistanda fövqəladə rejimin sərtləşməsi, uzadılması daha çox Paşinyan hakimiyyətinin qorunmasına hesablanıb, nəinki koronavirusla mübarizəyə"*

Ölkə rəhbərliyi deyib ki, vəziyyəti tam nəzarət altında saxlamaq üçün bu addımı atırlar. Qeyd edək ki, Ermənistan bir ay davam edən fövqəladə vəziyyət elan etmişdi və daha sonra əksər müəssisələrin bağlanması və sərbəst hərəkəti məhdudlaşdırmaq üçün fövqəladə məhdudiyyətləri sərtləşdirildi. Yalnız ərzaq mağazaları, apteklər və bankların açıq qalmasına icazə verilib. Ermənistanın digər region ölkələrindən fərqli olaraq karatin deyil, fövqəladə vəziyyət elan etməsinin və bununda müddətinin uzadılmasının kökündə hansı səbəblər dura bilər?

İctimai Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, son statistik məlumatlara görə, Ermənistanda 822 yoluxma qeydə alınıb, onlardan 7-si ölüb:"Qeyd edək ki, koronavirusla bağlı test Ermənistanda çox məhdud sayda insan arasında aparılıb və ilkin nəticələrə görə, yoxlanılan hər 10 adamdan birində yoluxma qeydə alınıb. Ermənistan kimi ölkədə əhalinin hamısı testdən keçirilsə vəziyyətin daha da acınacaqlı olduğu üzə çıxar. Bu səbəbdən də Paşinyan hakimiyyəti maksimum dərəcədə statistikanı gizlətməkdə maraqlıdır. Çünki iqtisadiyyatı bərbad olan Ermənistanın bu pandemiyanın öhdəsindən gəlməyə gücü qalmayıb. Elementar tibb işçiləri belə çatmır. Bununla bağlı rəsmi müraciət etdilər ki, təqaüddə olan tibb işçiləri qayıdıb işləri ilə məşğul ola bilərlər. Bundan əlavə, adi dolanışıq səbəbindən Ermənistanı tərk edib, yaxın MDB ölkələrinə üz tutan vətəndaşların da hissə-hissə ölkəyə dönüşü reallaşır. Onların da sayı az deyil. Bu sayda vətəndaşı karantin altında saxlamağa Ermənistanın şəraiti belə yoxdur. Karantindən sonra isə həmin adamlar minimal dolanışıq istəyəcəklər. Ermənistanın sanballı dəstək proqramı elan etməyə qüdrəti yoxdur. Azərbaycanın elan etdiyi sosial paketlərin həcmi 3 milyarda yaxınlaşıb. Təbiidir ki, ermənilərdə bu resurslar yoxdu. Artıq Paşinyan rəsmən bir neçə ünvandan kömək istəyib. Ermənistanda hakimiyyət xalqın qəzəbindən çox ehtiyat edir.

Paşinyan bilir ki, inqilab zamanı verdiyi vədlərin heç birini yerinə yetirə bilməyib. Qəzəbli kütlənin maddi durumu daha da pisləşir və hər an ölkədə ona qarşı yeni inqlab baş qaldıra bilər. Bu baxımdan da, Ermənistanda fövqəladə rejimin sərtləşməsi, uzadılması daha çox Paşinyan hakimiyyətinin qorunmasına hesablanıb, nəinki koronavirusla mübarizəyə".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənilər arasında çəkişmə Qarabağ münaqişəsinin həllini tezləşdirə, "seçki şousu" Paşinyanın sonu ola bilər...

**Zəbt edilmiş Azərbaycan ərazilərində təşkil edilən "seçkilər" burada formalaşmış separatçı relimlə İrəvan arasında münasibətlərin daha da kəskinləşməsi ilə müşayiət olunmaqdadır. Belə görünür ki, "Qarabağ klanı" baş nazir Nikol Paşinyanın burada öz adamını yerləşdirmək cəhdi ilə barışmaq istəmir.**

Elə bu da onlarla Paşinyan hakimiyyəti arasında ziddiyyətləri daha da dərinləşdirir. Hesab olunur ki, bu ziddiyyət daha da dərinləşməyə doğru getsə, tərəflərdən hər ikisi zəif duruma düşəcək.

Erməni mediası yazır ki, hadisələrin bu səpkidə inkişaf axarı onlar üçün böyük problem yaradacaq. Məsələn, "İrates" qəzeti yazır ki, tərəflər arasında artan qarşıdurma ən müxtəlif sahələrdə özünü yenidən qabarıq büruzə verəcək: "Bu ziddiyyət, əslində hər iki tərəf üçün böyük problemlər deməkdir. Belə ki, "Qarabağ klanı"na daxil olanlar hələ də iqtisadi cəhətdən böyük resurslara malikdir. Onlar Ermənistan daxilində iqrisadi durumu destabilizasiya etmək üçün lazımı, resursları, o cümlədən maliyyəni əllərində saxlayır. Paşinyan iqtidarı üçün isə istənilən vaxt hüquqi, inzibati resursları işə salmaq problem deyil. Bu vəziyyətdə tərəflər Qarabağda yenidən üz-üzə gəlir. Hər iki tərəf burada öz adamını görmək istəyir. Onların bu çəkişməsi, həyatın bütün sahələri ilə yanaşı, Dağlıq Qarabağ münaqişəsinin gedişinə də ermənilərin maraqlarına zidd şəkildə təsir göstərə bilər. Çünki bu çəkişmədə tərəflərin zəifləyən mövqeyi Azərbaycan tərəfindən də aydın sezilir".

Elə "1in.am" portalı da eyni mövqedən çıxış edir. Portal yazır ki, Dağlıq Qarabağda 31 martda keçirilən "seçkilərin" nəticələrinə görə liderlər sabiq "baş nazir" Araik Arutyunyan və "xarici işlər naziri" Masis Mailyandır:"Paşinyan iqtidarı Araik Arutyunyanı Qarabağda "prezident" postunda görmək istəyir. "Qarabağ klanı" isə digər namizədə stavka edir. Amma əslində, Araik Arutyunyan da əvvəllər "Qarabağ klanı"nın təmsilçilərindən sayılırdı. Eyni zamanda, məsələnin başqa tərəfi də mövcuddur. Geniş qəbul olunan belə bir fikir var ki, Qarabağın zəngin adamlarından biri olan, 10 ilə yaxın "baş nazir" işləyən Araik Arutyunyan Paşinyana tərəf meyllənir. O, İrəvana münasibətdə taktiki mülahizələrə görə loyal siyasət izləyib. Arutyunyan "məxməri inqilab"dan dərhal sonra Ermənistanda gedən dəyişikliklərə, həqiqətən, xüsusi loyallıqla yanaşıb. Bu səbəbdən Paşinyan üçün məqbul şəxsdir".

Bu "seçkilər" biabırçı "seçkilər"dir, ... bununla ləyaqət hisslərimizlə oynamağa çalışıblar"

Yaranmış vəziyyətdə "Qarabağ klanı" Ermənistan hakimiyyətinə ünvanlanmış etiraz aksiyaları təşkil edir. Belə ki, bu günlərdə işğal altında olan Qarabağda yaşayan ermənilər etiraz aksiyası təşkil edib. Etiraz aksiyası "İnqilabçı partiya" tərəfindən Xankəndi şəhərində təşkil olunub. Aksiyaçılar bir neçə gün öncə keçirilən qanunsuz "seçkilər"in nəticələrinə etiraz edib və onu ləğv etməyə çağırış ediblər. Partiyanın sədri Artur Osipyan bildirib: "Bizim tələblərimiz budur ki, "seçkilər"i ləğv etmək, yenidən "seçkilər" elan etmək lazımdır. Bu "seçkilər" biabırçı "seçkilər"dir, bunlar qəbuledilməz "seçkilər"dir, bununla ləyaqət hisslərimizlə oynamağa çalışıblar". Osipyanın çıxışı zamanı bəzi şəxslər arasında mübahisə başlayıb və Osipyan təxribatlara əl atmamağa çağırış edib. Onun sözlərinə görə, təxribatlara əl atanlar Araik Arutyunyanın tərəfdarları olub. Bununla belə, narazı ermənilər "seçkilər"in mənasız olduğunu deyiblər. Onlar növbəti saxtakarlığa yol verilməyəcəyini də xüsusi qabardıblar. Digər tərəfdən, Paşinyanın adamının aprelin 14-də keçiriləcək ikinci turda separatçı rejimin başına keçməsini əngəlləmək üçün "Qarabağ klanı" koronavirus problemini də xüsusi qabartmağa başlayıb. Bu fonda "ArmNews" telekompaniyasının departament rəhbəri Abraam Qasparyan qeyd edir: "Koronavirus Dağlıq Qarabağa çatsa, bunun məsuliyyətini Ermənistanın baş naziri və səhiyyə naziri daxil olmaqla, 6 nəfər daşıyacaq". Onun sözlərinə görə, Ermənistanın burada böyük məsuliyyəti var:"Bizim məmurların bunun "suveren dövlətin daxili qərarı" olduğunu, Ermənistanın "demokratik dövlətin" işlərinə müdaxilə etməməsini söyləməsi qəbuledilməzdir. Pandemiya Qarabağa çatsa, burada 6 nəfər məsuliyyət daşıyacaq: Ermənistan prezidenti, baş naziri, Təhlükəsizlik Şurasının katibi, səhiyyə naziri, "Qarabağın prezidenti" və "səhiyyə naziri". Qasparyan əlavə edib ki, 14 apreldə "seçkilərə" getmək avantüradır: "Ümid edirəm ki, İrəvan siyasi ambisiyalar naminə hər kəsi fakt qarşısında qoyaraq "seçkilərə" getməyin zərərini anlayacaq". "1in.am" portalı da məsələyə eyni prizmadan yanaşır:"Qarabağda keçiriləcək ikinci turdan öncə İrəvandan necə bir siyasi siqnalın gələcəyi də çox vacibdir. Əlbəttə, virusun İrəvandan Qarabağa yayılmaması mühümdür, çünki bu, "seçkilərin" ikinci turunun keçirilməsinin təminatıdır. Amma virus burada tapılsa, "seçkilər" baş tutmayacaq. "Qarabağ klanı"na yaxın olanlar hələ müəyyən müddət "hakimiyyət" başında qalacaq. Yəni söhbət ikinci turdan gedirsə, burada koronavirusla bağlı vəziyyətin necə olacağı, əlbəttə, əhəmiyyətlidir. Birinci turun keçirilməsi "seçkilərin" təxirə salınması çağırışları ilə müşayiət olundu, lakin siyasi qərar dəyişmədi. Bu dəfə durum necə olacaq? Seçkilərin təxirə salınması çağırışı ilə ilk dəfə adı Serj Sarkisyan və Robert Köçəryanla assosiasiya olunan Vitali Balasanyan çıxış etmişdi. İndi maraq doğuran odur ki, klan seçkilərin təxirə salınması ilə bağlı özünü bundan sonra necə aparacaq. Bu tələbi irəli sürərək və ya ümumiyyətlə seçkilərin nəticələrinin ləğv edilməsi gündəliyi ilə daha aqressiv hərəkətlərə baş vuracaqmı? Bunlar cari durumla bağlı yarana biləcək suallardır. Amma virus məsələsini ön plana çəkib seçkiləri təxirə salmaq gündəmdən çıxmayıb".

"...bu "seçkilər" Qarabağda yaşayanları risqə atıb və tezliklə hökmən koronavirusa yoluxma halları açıqlanacaq"

Bütün bunlar o deməkdir ki, aprelin 14-nə təyin edilmiş "ikinci tur" baş tutmaya bilər. Terrorçu "Sasna tsrer" partiyasının tərəfdarı olan keçmiş səfir, "Modus vivendi" mərkəzinin rəhbəri Ara Papyan bildirir ki, bu halda Paşinyan niyyətinə çatmayacaq. Onun sözlərinə görə, bütün dünyada kütləvi tədbirlərin ləğv edildiyi, karantin tətbiq olunduğu bir vaxtda Qarabağda insanları "seçki məntəqələrinə" aparmaq virusun yayılması üçün böyük risq yaradıb:"Deyirlər ki, Qarabağda yoluxma halı aşkarlanmayıb. Kim bunu axtarıb? Cəmi 29 nəfərdən analiz götürüblər. Üstəlik, mən orada olmasam da dostlarım bildirir ki, bu "seçkilər" hansı pozuntularla keçib. Müxtəlif formalarda rüşvət verilməsi, "seçicilərin" ələ alınması, onlara təzyiqlər və təhdidlər barədə nəhəng həcmdə informasiyalar daxil olub". Papyan deyib ki, bu "seçkilər" Qarabağda yaşayanları risqə atıb və tezliklə hökmən koronavirusa yoluxma halları açıqlanacaq:"Çünki daha bunu gizlədə bilməyəcəklər. Üstəlik, ikinci turun olması vəziyyəti daha da mürəkkəbləşdirir. Dəyişən isə heç nə olmayacaq. Çünki Qarabağdakı cinayətkar rejimin iki nömrəli adamı olmuş Arutyunyan pulla və inzibati resurslarla nəticələri artıq öz xeyrinə təmin edib. Birinci yerdə Araik Arutyunyandır. O, Qarabağda birinci oliqarxdır, qoy heç kim deməsin ki, onun əldə etdiyi sərvətlər qanunidir. İndi Arutyunyan bu sərvətləri qanunsuz olaraq vəzifə almaq üçün sərf edir. Əgər xərcləyirsə, deməli ümid edir ki, vəzifədə olanda daha artığını əldə edəcək. Paşinyan da siyasi maraqları naminə onun qanunsuz əməllərinə göz yumur". Ara Papyanın fikrincə, Arutyunyan əvvəllər köhnə klanın nümayəndəsi kimi həm keçmiş prezident Serj Sarkisyanı, həm də baş nazir Paşinyanı qane edirdi:"Amma sonradan onun Paşinyana daha çox yaxınlaşması köhnə klanı narazı saldı. Klan hesab edir ki, bu şəxs Qarabağda onların mövqeyini zəiflədəcək. Bu səbəbdən daha güclü şəkildə, etiraz aksiyaları da daxil olmaqla, müqavimət təşkil edirlər. Bu isə bütün ermənilər üçün ciddi problem yarada bilər. Hətta Qarabağ münaqişəsinin gedişi baxımından da. Lakin belə görünür ki, maraqlar və ziddiyyətlər fonunda Qarabağ məsələsi arxa plana da atıla bilər. Bu məsələdə ölkənin siyasi və daxili siyasi həyatının hansı dəyər sistemi və şüur üzərində qurulduğu vacibdir. Bu məsələ isə Ermənistanda açıqdır, buna görə təhlükəsizlik məsələsi əsasən ordunun çiyinlərində qalmaqdadır. Ordu isə tənəzzüldədir. Belə vəziyyətdə koronavirus orduda yayılsa, Qarabağdan əsər-əlamət qalmayacaq".

"...bugünkü vəziyyətin cavabdehi Ermənistanın səhiyyə naziri Arsen Torosyan və Nikol Paşinyandır"

Ermənistanın Demokratik Vətən Partiyasının sədri Petros Makeyan da eyni fikirdədir:"Əgər səhiyyə naziri, daha sonra da Paşinyan koronavirusla bağlı vəziyyəti düzgün qiymətləndirsəydilər, bu cür mənzərəyə sahib olmazdıq, vəziyyətin məsuliyyətini onlar daşıyır. İndi də virusu Qarabağda yaymaqdan çəkinmirlər. Koronavirus problemi bütün dünyada var. Faktlarla, gecikmiş fəaliyyətlərlə qiymətləndiririk. Səlahiyyətlilər digərlərini dinləməmək kompleksindən qurtulmalıdırlar, bugünkü vəziyyətin cavabdehi Ermənistanın səhiyyə naziri Arsen Torosyan və Nikol Paşinyandır. İndi onlar maraqları naminə virusun Qarabağda yayılma təhdidini önləmək istəmirlər. Amma sonda bunun Qarabağın Azərbaycana qayıtmasına gətirib çıxaracağını da düşünə bilmirlər".

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Bütün dünya dövlətlərini məşğul edən bir nömrəli məsələyə çevrilmiş koronavirusun yayılmaqda davam etməsi beynəlxalq sistemin qlobal problemlər qarşısında zəifliyini tam şəkildə nümayiş etdirdi. Qeyd edək ki, ötən ilin dekabrında Çində meydana çıxan və COVID-19 adı verilən bu virus üç aydan sonra bütün dünyanı bürüyərək qlobal problemə çevrildi.**

# Azərbaycan koronavirusun iqtisadi təhdidlərini neytrallaşdırır - sosial sahədə də ciddi fəaliyyətlər var...

Virus ölkələrin səhiyyə sisteminin, iqtisadiyyatının hansı səviyyədə olmasını göstərməklə yanaşı, dövlətlər arasındakı münasibətlərin də zəif yerlərini aşkara çıxardı. Hələ də virusa yoluxanların və ölənlərin sayı hər gün artır. Dövlətlər bu fonda daha da güclü məhdudiyyət tədbirləri həyata keçirir, böyük şəhərlər karantinə alınır, vətəndaşların küçəyə çıxması qadağan edilir.

Bunlara paralel olaraq maliyyə bazarları çökür, iri şirkətlər, fabrik və zavodlar bağlanır. Dünya nəqliyyat sistemi, demək olar ki, dayanıb. Təyyarə reysləri, avtomobil və qatarlarla yükdaşımalar çox az miqdarda həyata keçirilir. Bütün bunlar dünya iqtisadiyyatına böyük və sağalması çətin zərbələr vurur. Son onilliklər ərzində dünya bir neçə dəfə qlobal xarakterli böhranlar yaşayıb. Lakin heç bir böhran Çini və ABŞ-ı indiki kimi "silkələməyib". Asiyadan Afrikaya, Avropadan Amerikaya kimi dünya bu qədər narahatlıq, gərginlik, iqtisadi və səhiyyə böhranı keçirməyib. Məsələn, virus səbəbindən təkcə son həftə ərzində ABŞ-da 2 milyon 28 min nəfər işini itirib. Cari il ərzində 5 minədək iri şirkət planlarını dəyişərək işçilərin 5 faizini ixtisara salacaq. Avropada, Asiyanın bir çox ölkələrində də vəziyyət ürəkaçan deyil. Yaranmış vəziyyətdə indi ölkələr daha çox öz imkanları hesabına bu problemin öhdəsindən gəlməyə çalışır. Amma ölkələrin imkanları da fərqlidir. Bu xüsusda vəziyyətin ən yaxşı olduğu ölkələr sırasına Azərbaycan da aid olunur. Əvvəla, vaxtında görülən tədbirlər sayəsində xəstəliyin ölkəmizdə yayılması Qərbdə olduğu kimi dəhşətli xarakter almayıb. Digər tərəfdən, iqtisadi müstəvidə atılan addımlar da bu istiqamətdə Azərbaycana təsirlərin digərləri ilə müqayisədə daha az olacağını deməyə əsas verir.




Əvvəla, burada xatırlamaq lazımdır ki, Azərbaycan iqtisadiyyatı 2020-ci ilin yanvar və fevral aylarında yüksək sürətlə inkişaf edib. Belə ki, ilin ilk iki ayında ölkəmizdə ümumi daxili məhsul, xüsusilə də qeyri-neft sektoru, qeyri-neft sənayesi və əhalinin gəlirləri yüksək dərəcədə artıb. Bütün dünyanı bürüyən koronavirus pandemiyası ötən ay iqtisadi artıma mənfi təsir etsə də vəziyyət hələ qənaətbəxşdir. Belə problemin iqtisadi fəsadlarını minimuma endirmək üçün ölkədə dövlət tərəfindən vaxtında çox ciddi, ardıcıl tədbirlər həyata keçirilib və keçirilməkdədir. Epidemiya şəraitində Azərbaycan iqtisadiyyatına dəyən zərərin ödənilməsi və aradan qaldırılması üçün 4 işçi qrup yaradılıb. Burada 10 istiqamət var. Bu istiqamətlər ölkə iqtisadiyyatının ən mühüm və aparıcı 20 sahəsini əhatə edir. Eyni zamanda, Azərbaycan dövləti iqtisadiyyata və ölkə sahibkarlarına dəyən zərəri öz üzərinə götürüb. Elə bu günlərdə ölkənin baş naziri "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların respublika iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Prezidentinin 2020-ci il 19 mart tarixli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə sərəncam imzalayıb. Tədbirlər Planı üç istiqaməti - iqtisadi artıma və sahibkarlığa dəstəyi, məşğulluq və sosial rifaha dəstəyi, makroiqtisadi və maliyyə sabitliyini əhatə edir.

Tədbirlər Planı həm məşğul əhalinin, yəni muzdla işləyənlərin, eyni zamanda çalışmayan vətəndaşların sosial təminatını və eləcə də onlara birbaşa yardımın edilməsini nəzərdə tutur. Milli Məclisin deputatı Vüqar Bayramov bildirir ki, Tədbirlər Planında iş yerlərinin, eləcə də sosial sabitliyin qorunması istiqamətində vəsaitlərin ayrılması nəzərdə tutulur: "Birinci istiqamət pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqlarının müəyyən hissəsinin dövlət tərəfindən ödənilməsidir. Məqsəd iş yerlərinin sayının azaldılmaması və həmin sektorlarda, yəni orta və iri sahibkarlıq subyektlərində çalışan vətəndaşların, indiki halda işləməsələr və məzuniyyətdə olsalar belə, əməkhaqlarını ala bilmələridir. Bu, orta və iri sahibkarlıq subyektlərində çalışan vətəndaşları əhatə edəcək. Hansısa bir vətəndaşın kiçik, orta və iri sahibkarlıq subyektində muzdlu işçi kimi əmək müqaviləsi varsa, dövlət ona dəstək göstərəcək. Hazırda muzdla çalışanların sayı 300 min nəfərdir. Büdcədən bu istiqamətdə 215 milyon manat vəsait ayrılacaq. Bu o deməkdir ki, muzdla çalışan hər bir vətəndaşa orta hesabla 716 manat vəsait ödəniləcək. Təbii ki, əməkhaqqı həcmindən asılı olaraq məbləğ dəyişə bilər. Mikro və fərdi sahibkar kimi VÖEN-lə işləyən vətəndaşlarımız da var. Həmin sahibkarlıq subyektlərinə də birbaşa yardımın verilməsi nəzərdə tutulub. Bu məqsədlə büdcədən 80 milyon manat vəsait ayrılacaq. Belə ki, VÖEN-lə işləyən hər bir vətəndaş üçün 267 manat vəsaitin ayrılması nəzərdə tutulur. Burada yenə də məbləğ VÖEN-lə və mikro sahibkar kimi fəaliyyət göstərən vətəndaşların əvvəlki dövrdə gəlirlərindən asılı olaraq dəyişə bilər. Əsas meyar ondan ibarətdir ki, mikro və fərdi sahibkar 2019-cu ildə vergi ödənişlərini, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta ödənişlərini həyata keçirmiş olsun. VÖEN-lə çalışanlar 2019-cu ildə məcburi öhdəliklərini yerinə yetiribsə, vergi ödəyibsə və hesabatlar veribsə, həmin vətəndaşlar bu imkanlardan yararlana biləcək".

Bundan başqa məlumdur ki, bu aydan vergi güzəştlərinin tətbiqi nəzərdə tutulub. Həmçinin əmlak və torpaq vergisindən müddətli azadolmalar tətbiq ediləcək. Vergi ödəyiciləri üçün mənfəət və ya gəlir vergisindən də güzəşt tətbiq olunacaq. Mikro sahibkarlıq subyektləri üzrə hesabatların verilməsi və verginin ödənilməsi müddəti uzadılıb. Burada, xüsusən də pandemiyanın daha çox mənfi təsir göstərdiyi sahələr üzrə vergilərin ödənilməsi müddəti artırılıb. Eyni zamanda, icarə haqqından tutulan vergilər üzrə güzəşt tətbiq olunacaq. Bu, icarə vergisinə güzəştin tətbiq edilməsi anlamına gəlir. Ödənilməmiş vergi, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarına görə faizlərin hesablanması müəyyən müddətə təxirə salınacaq.

Həmçinin, daha çox sahibkarlıq subyektlərinə dövlət zəmanəti ilə kreditlərin verilməsi və eləcə də kredit faizlərinin subsidiyalaşdırılması nəzərdə tutulur. Subsidiyalaşdırma nəticə etibarilə faizin əhəmiyyətli hissəsinin dövlət tərəfindən ödənilməsi deməkdir. Bu istiqamətdə 20 milyon manat vəsait ayrılacaq. Güzəştli ipoteka kreditlərinin həcmində artımlar olacaq, bu məqsədlə 90 milyon manat vəsait ayrılacaq. Vətəndaşlar güzəştli ipoteka kreditlərindən yararlanaraq mənzil problemlərini həll edəcəklər.

Digər istiqamət işləməyən vətəndaşlarla bağlıdır. Müvəqqəti məşğulluğun təmin edilməsi üçün koronavirusun mövcud olduğu dövrlərdə iki ay müddətinə 50 min haqqı ödənilən ictimai iş yerinin yaradılması nəzərdə tutulur. Bu məqsədlə büdcədən 30 milyon manat vəsait ayrılıb. Dövlət məşğulluq xidməti orqanlarında işsiz kimi qeydiyyata alınan 200 min şəxsə yaşayış minimumu həcmində, yəni 190 manat birdəfəlik ödənişin verilməsi nəzərdə tutulur. Bunun üçün dövlət tərəfindən 70 milyon manat ayrılacaq.

**Bütövlükdə, Tədbirlər Planı çərçivəsində ayrılan 2,5 milyard manat vəsaitdən əlavə 343,6 milyon manat da digər mənbələrdən təmin olunacaq. Digər mənbələrə İşsizlikdən Sığorta Fondu və Dövlət Sosial Müdafiə Fondunu aid etmək olar. Araşdırmalar göstərir ki, Azərbaycanın koronaböhranla mübarizə büdcəsi ümumilikdə 3 milyard manata çatır. Bu da dövlət büdcəsi gəlirlərinin 12,3 faizinə və ya ÜDM-in 3,6 faizinə bərabərdir.**

***Nahid SALAYEV***

# Azərbaycanın ilk maska istehsalı müəssisəsinin açılışında Prezidentin xalqa müraciəti - Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək!

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışında iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Bakı Tekstil Fabriki" MMC-nin rəhbəri Səkinə Babayeva dövlət başçısına və birinci xanıma müəssisə haqqında məlumat verib.**

Müəssisə ilə tanışlıqdan sonra dövlət başçısı Azərbaycan xalqına müraciət edərək deyib:

- Bu gün ölkəmizdə tibbi maska istehsalı başlayır. Bu çox əlamətdar hadisədir. Çünki indi dünyanın bir çox ölkələrində tibbi maska çatışmazlığı var, o cümlədən Azərbaycanda və biz bu sahədə daim idxaldan asılı idik. Amma indiki şəraiti nəzərə alaraq qısa müddətdə, cəmi iki həftə ərzində yerli istehsal təşkil edildi. Burada sahibkarların böyük rolu vardır, eyni zamanda, Azərbaycan dövləti də öz maliyyə dəstəyini göstərmişdir. Beləliklə, qısa müddət ərzində yeni müasir istehsalat sahəsi yaradılmışdır və bu, bizə imkan verəcək ki, özümüzü tibbi maskalarla böyük dərəcədə təmin edək.

Bildiyiniz kimi, koronavirusla mübarizədə maskalardan istifadə xüsusi əhəmiyyət daşıyır. Qeyd etdiyim kimi, indi dünyanın bir çox ölkələrində bu sahədə problemlər yaşanır. Azərbaycanda da qıtlıq yaranmışdır və bəzi hallarda apteklərdə tibbi maskalar yoxdur. Ona görə bu istehsal bizə imkan verəcək ki, özümüzü təmin edək və koronavirusla mübarizə başa çatandan sonra da Azərbaycan artıq idxaldan asılı olmayacaq.

Eyni zamanda, bu gün Azərbaycanda dezinfeksiya vasitələrinin istehsalı da təşkil edilib. Bu da qısa müddət ərzində ərsəyə gəlmiş bir məsələdir. Amma burada üstünlüyümüz ondan ibarət idi ki, ölkəmizdə bir neçə spirt zavodu var və bu spirt zavodlarında dezinfeksiya vasitələri istehsal edilməyə başlanmışdır və artıq satışa verilir. Beləliklə, mübarizəni daha da səmərəli şəkildə aparmaq üçün dəfələrlə qeyd olunub ki, vətəndaşlar daha da məsuliyyətli olmalıdırlar və şəxsi gigiyenasına fikir verməlidirlər. Ancaq bunu təmin etmək üçün vasitələr olmalıdır və bu gün bu vasitələr artıq bazara təqdim edilir - tibbi maskalar və dezinfeksiya vasitələri.

İndi əsas məsələlərdən biri də odur ki, apteklərdə və digər ticarət yerlərində süni qiymət artımı olmasın. Çünki maska qıtlığı artıq süni qiymət artımına da gətirib çıxarmışdır və bəzi hallarda maskaları altdan satırdılar. Bu hallara qətiyyən yol vermək olmaz və müvafiq dövlət qurumları çox ciddi nəzarət mexanizmi tətbiq etməlidirlər. Əgər süni qiymət artımı olarsa, bu işdə əli olan şəxslər ciddi cəzalandırılacaq. Çünki indiki pandemiya şəraitində belə addımlar xəyanət kimi qəbul ediləcək.



Tibbi maska və dezinfeksiya vasitələrinin istehsalı bir daha onu göstərir ki, Azərbaycanda yaradılmış infrastruktur imkan verir, biz qısa müddət ərzində lazım olan istehsalat sahələrinin təşkilində uğur qazana bilək. Təsadüfi deyil ki, bu istehsal müəssisəsi Sumqayıtda yerləşən Kimya Sənaye Parkının ərazisində təşkil edilib. Bu park mənim təşəbbüsümlə yaradılıb və artıq burada bir çox müəssisələr fəaliyyət göstərir. Bu müəssisələr bizim qeyri-neft iqtisadiyyatımıza da böyük töhfə verir. Eyni zamanda, mövcud kadr potensialı, sahibkarlar sinfinin inkişafı, dövlət və özəl sektorun tərəfdaşlığı, daim dövlət tərəfindən özəl sektora göstərilən dəstək - həm siyasi, həm maddi dəstək, güzəştli kreditlərin verilməsi, bütün bu amillər, yeni vəziyyətə gətirib çıxardı ki, biz vətəndaşlara lazım olan vasitələri qısa müddət ərzində operativ şəkildə istehsal edək və bazara təqdim edək. Mən onu bir daha qeyd etmək istəyirəm ki, hətta inkişaf etmiş ölkələrdə bu gün maska qıtlığı var. Bizdə alınmış yeni avadanlıq, - bu avadanlığın ikinci xəttinin də gətirilməsi nəzərdə tutulur, - imkan verir ki, avtomatlaşdırılmış rejimdə böyük həcmdə, böyük sayda maskalar istehsal olunsun.

Ona görə bugünkü tədbir xüsusi əhəmiyyət daşıyır. Mən son illər ərzində yüzlərlə, bəlkə də mindən çox sənaye müəssisəsinin açılışında iştirak etmişəm, ancaq bu istehsalat sahəsi xüsusi əhəmiyyət daşıyır. Çünki bu gün Azərbaycanda istehsal olunan tibbi maskalar və dezinfeksiya vasitələri insanlarımızı qoruyacaq. Bizim də əsas məqsədimiz ondan ibarətdir ki, insanlar bu xəstəliyə yoluxmasın, insanların sağlamlığı təmin edilsin və buna nail olmaq üçün bütün tədbirlər görülür.

Qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində Azərbaycanda hazırda koronavirus xəstəliyinin yayılması geniş vüsət almayıb. Dünyanın inkişaf etmiş ölkələrində gündə yüzlərlə insan vəfat edir və heç bir ölkənin səhiyyə sistemi bu artan xəstələrin müalicəsini tam təşkil edə bilmir. Bu, bizim üçün də bir dərs olmalıdır. Ona görə Azərbaycanda qabaqlayıcı tədbirlərin görülməsi və vəziyyətə uyğun şəkildə bu addımların atılması bir məqsədi güdürdü ki, biz insanların həyatını, sağlamlığını qoruyaq və bu xəstəliyin Azərbaycanda geniş vüsət almasına imkan verməyək. Bu günə qədər görülmüş bütün tədbirlər öz səmərəsini verdi. Bircə onu demək kifayətdir ki, Azərbaycanda bu günə qədər 45 min test keçirilib. İndi müxtəlif internet resurslarında bütün ölkələrdə həm xəstələrin sayı, həm ölüm hallarının sayı, eyni zamanda, keçirilmiş testlərin sayı göstərilir. Hər bir insan o saytlara girib baxa bilər, Azərbaycan dünyada aparıcı ölkələrdəndir ki, bu qədər test keçirib. Bu, bizə imkan verdi ki, xəstəliyi müəyyən edək, xəstə insanlara operativ tibbi xidmət göstərək və eyni zamanda, özümüzü böyük bəladan qoruya bilək. Bu günə qədər biz buna müvəffəq olmuşuq. Eyni zamanda, operativ tədbirlərin görülməsi və vəziyyətə uyğun addımların atılması öz səmərəsini göstərmişdir. Aprelin 5-dən qüvvəyə minmiş yeni karantin qaydalarının bir məqsədi var ki, bu xəstəlik Azərbaycanda geniş yayılmasın. Aprelin 5-nə qədər vaxtaşırı qəbul edilmiş qərarlar və yeni qaydalar bu məqsədi daşıyır. Mən dəfələrlə bildirmişəm ki, biz həm milli birlik, həm həmrəylik nümayiş etdirmişik və məsuliyyət də nümayiş etdirməliyik. Amma indiki şəraitdə aprelin 5-dən sonra qüvvəyə minmiş qaydaları nəzərə alaraq vətəndaşlar nizam-intizam nümayiş etdirməlidirlər. Çünki bu qaydaları pozanlara qarşı ciddi tədbirlər nəzərdə tutulur və bu tədbirlər artıq təsbit edilib. Əminəm ki, vətəndaşlar bu qaydalara tam əməl edəcəklər və beləliklə, xəstəlik geniş vüsət almayacaq, biz bu vəziyyətdən az itkilərlə çıxa biləcəyik.

Eyni zamanda onu da bildirməliyəm ki, hazırda 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alırlar. Bu xəstəxanaların arasında bizim ən müasir xəstəxanamız - "Yeni klinika" da var. Bu klinika bu yaxınlarda - martın sonunda açılmışdır, orada 575 çarpayı nəzərdə tutulur. Nəzərə alsaq ki, klinika vaxtından əvvəl istifadəyə verilib, orada xəstələri qəbuletmə imkanları tədricən artacaq - ilkin mərhələdə 100 xəstə, sonra 300 və ondan sonra tam fəaliyyətə başlayacaq. Həmçinin bu il martın əvvəlində mənim iştirakımla bölgələrdə açılmış xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verildi. Qazax, Goranboy və Şəmkir şəhərlərində yerləşən ən müasir xəstəxanalar koronavirus xəstələrinin müalicəsi ilə məşğuldur. Bu üç xəstəxanada çarpayıların sayı təqribən 500 ətrafındadır. Beləliklə, cəmi bir ay ərzində mindən çox çarpayılıq, ən müasir standartlara uyğun tibbi müəssisələr istifadəyə verildi və orada koronavirus xəstələri müalicə alırlar.

Azərbaycan dövlətinin və sahibkarların operativ fəaliyyətini nəzərə alaraq, onu da bildirməliyəm ki, yaxın zamanlarda Bakıda və bir neçə bölgədə müasir xəstəxanaların yaradılması nəzərdə tutulur. Bu xəstəxanalar yeni texnologiyalar əsasında inşa ediləcəkdir. Bu texnologiyalar imkan verir ki, qısa müddətdə, bəlkə də üç həftə, bir ay ərzində xəstəxana tamamilə yenidən qurulsun, - yığma texnologiyalar prinsipi əsasında qurulacaq, - bütün lazımi avadanlıqla təchiz edilsin. Hər bir xəstəxananın çarpayı sayı 200-dür. Belə xəstəxanaların ölkəmizdə qısa müddətdə qurulması əlbəttə ki, bu mübarizədə bizə əlavə imkan verəcəkdir. Mübarizədə əsas məsələlərdən biri vaxt məsələsidir. Biz vaxtı nə qədər daraltsaq, nə qədər az vaxt çərçivəsində işləri görsək, xəstəliyə qarşı mübarizədə o qədər uğur qazana bilərik. Ona görə vaxt amili və əlbəttə, həkimlərin peşəkarlığı, bizim imkanlarımız, bütün bu amillərin vəhdəti bu gün imkan verir ki, Azərbaycan hələ də az itkilərlə bu vəziyyətdən çıxır. Ancaq əlbəttə, işlərin gələcək inkişafı göstərəcək ki, bizim sonrakı addımlarımız nədən ibarət olacaq. Hər halda, bu ciddi karantin rejimi ayın 20-nə qədər qüvvədə qalacaq. Ondan sonra biz addımlarımızı yaranacaq vəziyyətə uyğun şəkildə atacağıq.

*(Ardı 9-cu səh.)*

(Əvvəli 8-ci səh.)

Onu da bildirməliyəm ki, xaricdə yaşayan və xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi istiqamətində atılan operativ addımlar nəticəsində böyük nailiyyətlər əldə edilib. Bu günə qədər 15 minə yaxın Azərbaycan vətəndaşı xarici ölkələrdən təxliyə edilib və onların böyük əksəriyyəti karantinə yerləşdirilib. Hazırda karantində qalan vətəndaşların sayı 4500-dür. Karantin üçün ən məqbul yerlər müəyyən edilib. Karantin rejimində olan ən çox insanların məkanı Atletlər kəndidir. Orada hazırda təqribən 1300 insan yerləşdirilib. Karantində olan vətəndaşlar, eyni zamanda, Bakı şəhərində və bölgələrdə 4-5 ulduzlu otellərdə, istirahət zonalarında, bəzi dövlət qurumlarının istirahət mərkəzlərində yerləşdirilir. Onlara gündəlik yemək verilir, onlar tibbi müayinədən keçirlər. Onların mütləq əksəriyyəti yaradılmış vəziyyətdən çox razıdırlar, dövlətə və həkimlərə minnətdarlıqlarını bildirirlər.

Bir sözlə, Azərbaycan dövləti bu ciddi vəziyyətlə üzləşərək yenə də öz gücünü göstərdi. Onu göstərdi ki, bizim əsas vəzifəmiz xalqımızı, dövlətimizi qorumaqdır. Buna nail olmaq üçün istənilən addımların atılması mümkündür və biz bunu edirik. Operativ tədbirlər nəticəsində imkan verməmədik ki, bu bəla ölkədə geniş vüsət alsın. Ancaq bizim gələcək uğurumuz bundan sonra böyük dərəcədə insanların hərəkətlərindən asılı olacaq. Dövlət nə mümkünsə onu edib. Bu gün sərtləşdirilmiş, məhdudlaşdırıcı tədbirlər qüvvədədir. İnsanlar məsuliyyətli olmalıdırlar, özlərini, yaxınlarını, ailə üzvlərini qorumalıdırlar. Necə ki, biz birlik, həmrəylik göstəririk, eyni tərzdə məsuliyyət və nizam-intizam göstərməliyik.

Onu da bildirməliyəm ki, koronavirus xəstəliyi dünya iqtisadiyyatına böyük problem yaratdı, bunu artıq dünyanın aparıcı maliyyə qurumlarının rəhbərləri qeyd edirlər. O cümlədən Beynəlxalq Valyuta Fondu artıq qeyd edib ki, koronavirusun yaradacağı böhran 2008-2009-cu illərin böhranından daha ağır olacaq.

Azərbaycana gəldikdə, - üstəgəl neftin qiyməti demək olar ki, iki dəfədən çox düşmüşdür, - koronavirus xəstəliyi bir çox iqtisadi və xidmət sahələrinə mənfi təsir göstərir, ancaq buna baxmayaraq, o sahələrdə çalışan insanların problemləri nəzərə alınıb. Mənim göstərişimlə yaradılmış dörd işçi qrupu öz işini demək olar ki, böyük dərəcədə yekunlaşdırıb. Mənə məruzə edilib və göstəriş əsasında Nazirlər Kabineti artıq Tədbirlər Planını təsdiq edib. İlkin mərhələdə nəzərdə tutulurdu ki, bu məqsədlər üçün təqribən 1 milyard manat vəsait ayrılsın. Ancaq sonra əlavə hesablamalar bunun kifayət etməyəcəyini göstərdi və ən azı 2,5 milyard manat ayrılacaq ki, Azərbaycanda həm iqtisadi sabitlik təmin edilsin, məşğulluqla bağlı problemlər öz həllini tapsın və həm də bizim makroiqtisadi və maliyyə vəziyyətimiz sabit olsun.

Əgər biz koronavirusun ən çox təsir etdiyi sahələri və eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan insanları nəzərə alsaq, 600 min insan bu vəziyyətdən daha çox əziyyət çəkir, çünki orada iş yerləri bağlanıb. Sahibkarlara mənim çağırışım, birmənalı tələbim artıq hər kəsə bəllidir ki, bu dövrdə heç bir ixtisara getmək olmaz, ancaq biz sahibkarlara da imkan yaratmalıyıq ki, onlar da əziyyət çəkməsinlər. Azərbaycan 600 min işçini, o cümlədən fərdi sahibkarı dövlət hesabına maliyyələşdirəcək. Onların əməkhaqlarının əhəmiyyətli hissəsini dövlət öz üzərinə götürüb və artıq bu ödəmələr başlayır. O cümlədən tələbələrin problemləri, işsizlərə verilən müavinətin həcmi - bütün bunlar nəzərə alınır və 2,5 milyard manat bu məqsədlər üçün nəzərdə tutulub. Bu, çox böyük rəqəmdir. Bir daha demək istəyirəm ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür. Biz bunu bir daha nümayiş etdiririk. Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük! Sağ olun.

**Dünya neft bazarında yaşananlar bu məhsul ətrafında yaranan qiymət ajiotajının səngiməsinin yolunun yalnız Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn formuldan keçdiyini bir daha təsdiqlədi. Bu barədə danışmazdan öncə xatırladaq ki, neft qiymətlərində qiymət şoku Rusiya və Səudiyyə Ərəbistanı arasında yaşanan ziddiyyətlər fonunda qeydə alınmağa başladı.**

# Azərbaycanın yaratdığı format yenidən neft hasilatçılarını qiymət böhranından xilas edir

Belə ki, ötən ay tərəflər hasilatın azalması ilə bağlı razılıq əldə edə bilmədi. Düzdür, öncə OPEC+ razılaşması çərçivəsində tərəflər sutkada cəmi 1.5 milyon barrel ixtisara razı olmuşdular. Amma Səudiyyə Ərəbistanının bu həcmi koronavirusa görə qiymətlərin ucuzlaşmasının qarşısını almaq üçün daha 1.5 milyon barrel artırmaq təklifinə razı olmayan Rusiya ümumiyyətlə sövdələşməni tərk etdi. Bundan sonra Səudiyyə Ərəbistanı Rusiya ilə neft müharibəsinə başladı, hasilatı gündəlik 12 milyon barrelə qədər artırdı, üstəlik öz neftini bazarda 5-6 dollar aşağı qiymətə təklif etdi. Nəticədə qiymətlər sürətlə ucuzlaşdı və neft son 18 ildə ilk dəfə olaraq 20 dollar həddinə endi. Amma belə qiymətlərin bütün hasilatçı ölkələr, o cümlədən OPEC+ formatına daxil olmayan ABŞ üçün ciddi problem yaratdığı da üzə çıxdı. Elə bundan sonra OPEC+ formatının yenidən prosesə müdaxiləsi aktuallaşdı.

Belə bir vaxtda xəbər yayıldı ki, Azərbaycan, Rusiya və Qazaxıstanın da iştirakı ilə OPEC ölkələri hasilatın sutkada 10 milyon barrel azaldılmasını videokonfrans yolu ilə müzakirə edəcəklər. Bu danışıqlar aprelin 6-na təyin edilmişdi, amma daha sonra danışıqların aprelin 9-dək təxirə salındığı açıqlandı. Lakin bu xəbərin özü belə neft qiymətlərində artıq yüksəlişə təkan verib və qiymətlər indi 30 dollar civarındadır. Lakin OPEC və qeyri-OPEC ölkələrinin bu durumda artıq qəti addımlar atması da zəruru şərt kimi çıxış edir. "The Wall Sreet Journal" nəşrinin etibarlı mənbələrə istinadla yaydığı xəbərə görə, OPEC+ alyansının qarşıdakı görüşündə razılıq əldə olunacağı təqdirdə Rusiya hasilatı gündəlik 1,5 milyon barrel azalda bilər. Qeyd olunur ki, videokonfrans formatında keçiriləcək iclasda Səudiyyə Ərəbistanının xam neft hasilatını gündəlik 3 milyon barrel, ABŞ da daxil olmaqla digər ixracatçı ölkələrin isə 5,5 milyon barrel azaldacağı gözlənilir. Bu isə bazara çıxan neftin 10 milyon barrel azalması deməkdir. Lakin bu göstərici daha da arta bilər. Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol vurğulayır ki, neft istehsalının gündəlik 10 milyon barrel azaldılması indiki halda bazarda sabitliyin yaranması üçün kifayət deyil:"Sutkalıq 10 milyon barrel hasilat məhdudiyyəti mümkün olarsa, bu yalnız yaxşı başlanğıc ola bilər və vaxta qənaət etməyə kömək edə bilər. Lakin rəqəmlərə görə, ehtiyatlarda gündəlik 15 milyon barrel artım görürük. Buna görə də hasilat daha çox azaldılmalıdır. Bu prosesdə daha çox sayda ölkənin iştirakına ehtiyac var. Səudiyyə Ərəbistanı neft bazarına sabitlik gətirən bir ölkə olaraq G20-nin sədri kimi bütün istehsalçıları və istehlakçıları bir araya toplaya bilər. İstehlakçı ölkələr strateji neft ehtiyatlarını doldurmalıdır. Mövcud vəziyyət təkcə OPEC+ koalisiyasının deyil, hər kəsin töhfəsini tələb edir. Neft istehsal edən ölkələrin növbəti görüşü qarşımızda duran böyük problemi həll etmək üçün yaxşı başlanğıc ola bilər".



Xatırladaq ki, qeyri-OPEC ölkələrindən biri kimi Azərbaycan artıq prosesə töhfə verməyə hazır olduğunu bildirib. Rəsmi Bakı bəyan edir ki, Azərbaycan neft bazarının sabitləşdirilməsi məqsədilə OPEC və qeyri-OPEC ölkələrinin nazirlərinin videokonfrans formatında planlaşdırılan görüşünə qatılaraq neft bazarının qlobal şəkildə tənzimlənməsi prosesinə töhfə verməyə hazırdır. Energetika Nazirliyi də bildirir ki, hazırda dünya neft bazarı iqtisadi aktivliyin zəifləməsi ilə əlaqədar neftə qlobal tələbatın kəskin azalması və neft ehtiyatlarının artmasının yaratdığı çətinliklərlə üzləşib:"Belə ki, neftə qlobal tələbatın azalması gündəlik təxminən 10-15 milyon barrel civarında qiymətləndirilir. Ay ərzində tələbatın sutkada 20 milyon barrel azalacağı, tədarük profisti ilə əlaqədar yaxın aylarda neft anbarlarının tamamilə dolacağı proqnozlaşdırılır. Belə bir vəziyyətdə OPEC+ formatına müzakirələrin bərpası və tənzimləmə mexanizminə qayıtmaq qlobal neft bazarı üçün mühüm əhəmiyyət daşıyır. Hesab edirik ki, neft istehsalçılarının həmrəyliyi, əməkdaşlığı neft bazarının iqtisadi amillərlə dəstəklənmədiyi situasiyada yeganə həll yoludur. Biz indi neft bazarının tənzimlənməsi prosesində yeni bir mərhələnin başlanğıcındayıq. Hazırkı problemlər yalnız OPEC+ ölkələrinə deyil, bu formatdan kənar ölkələrə də mənfi təsir edir. Ona görə də hesab edirik ki, neft bazarında tədricən balansın yaradılması üçün OPEC+ formatından kənar ölkələr də bu prosesdə iştirak etməlidir. OPEC və qeyri-OPEC ölkələrinin geniş formatda əməkdaşlığı baş tutarsa, tarixdə ilk dəfə olaraq yeni bir nizamlama modeli formalaşar, neft bazarında daha effektli və ədalətli tənzimlənmə mexanizmi yarana bilər. Neft bazarında tarazlıq və qiymət sabitliyi əldə edilər. Eyni zamanda, Azərbaycan bütün neft ölkələrini qarşıdakı görüşdə vahid mövqedən çıxış edərək neft bazarına birgə dəstək verməyə çağırır".

Belə bir vaxtda o da məlum olub ki, Çin strateji ehtiyatlarını artırmaq üçün neft almağa başlayacaq. Məlumata görə, hökumət qurumlara neft anbarlarını tez bir zamanda doldurmağı tapşırıb. Çin, strateji ehtiyatlardan əlavə, ticarət sahələrini də anbar kimi istifadə edə bilər. Bundan başqa, hökumət şirkətləri öz anbarlarını doldurmağa təşviq edir. Hökumətin məqsədi strateji ehtiyatların 90 günlük xalis idxal səviyyəsində, daha sonra isə kommersiya ehtiyatları da daxil olmaqla 180 gün səviyyəsində saxlanılmasıdır.

"Bloomberg"ə görə, Çinin xalis xam neft idxalı 900 milyon barrel səviyyəsindədir. Lakin ölkənin hazırkı neft ehtiyatının həcmi məlum deyil. Analitiklər hesab edir ki, Çin il ərzində gündəlik əlavə olaraq 80-100 milyon barrel neft ala bilər. Bu isə OPEC+ formatının gedişindən sonra qiymətlərə əsaslı surətdə təsir göstərəcək daha bir vacib addım sayılır. Hesab olunur ki, bu gedişlə neft yaxın tezlikdə yenidən 60 dollarlıq həddə qayıda bilər.

***Ramil QULİYEV***

**Dünyanı bürüyən koronavirus pandemiyasının dövlətlərə, xalqlara bütün istiqamətlərdə vurduğu zərər hələ tam olaraq hesablanmayıb. Çünki pandemiya davam edir və günü-gündən virus zənciri uzanır. Bu zəncirdə yeni-yeni dövlətlərə aid həlqələr yaranır. Bütün dövlətlər o zənciri sındırmağa çalışır və bu yöndə mübarizəsini davam etdirir.**

# Koronavirusla müharibə dövründə Azərbaycan dövlətinin daha bir üstünlüyü - əcnəbilər deportasiya edilmədi, onlar da müalicə olunur...

***Azər Həsrət:*** *"Azərbaycan dövləti ölkəmizdə olan xarici vətəndaşların heç birinin qarşısında "çıxın öz ölkənizə gedin" tələbi qoymadı"*

Bu gün COVID-19 pandemiyasını bioloji müharibəyə bənzədən ekspertlər saysızdır. İnsanlığın məhvinə səbəb olan bu müharibədən hansı dövlətin nə kimi itkilərlə çıxacağını indidən proqnozlaşdırmaq çox çətindir. Çünki getgedə pandemiyanın coğrafiyası dəyişir, böyüyür.

Bildiyimiz kimi, Azərbaycan dövləti dünyada bu virusun ilk fəsadları qeydə alındığı gündən ölkədə təhlükəsizlik tədbirlərini həyata keçirməyə başlayıb. Vətəndaşların sosial izolyasiyasından tutmuş, insanların karantinə alınmasına və s. qədər ölkəmiz genişmiqyaslı tədbirlər həyata keçirir. O tədbirlər haqqında qəzetimizdə və bütövlükdə, KİV-də geniş məlumatlar verildiyi üçün onları bir-bir burada sadalamaq istəmirik. Görülən tədbirlərdən nəinki vətəndaşlarımızın, eləcə də bütün beynəlxalq aləmin məlumatı var.

Dünyada koronavirus kabusunun dolaşdığı ilk vaxtlardan etibarən bütün ölkələr, xüsusən də Avropa dövlətləri xarici vətəndaşların öz ölkələrinə deportasiya edilməsi prosesini həyata keçirdilər. Bu dövlətlər əcnəbilərin öz ölkələrinə göndərilməsi, onların vətənlərində karantinə alınması yolunu tutdular. Azərbaycan dövləti xarici ölkələrdə olan vətəndaşlarının təxirəsalınmaz təxliyyəsinə başladı və bu gün də o proses davam edir. Onu da qeyd edək ki, Azərbaycandan fərqli olaraq, başqa ölkələr öz vətəndaşlarının təxliyyə edilməsinə elə də maraq göstərmədilər. Azərbaycan bu mənada da o dövlətləri üstələdi. Apardığımız araşdırmalar zamanı başqa bir faktla da qarşılaşdıq. Məlumatlara görə, Azərbaycanda koronavirusa yoluxan şəxslərin üçdə birini xarici vətəndaşlar təşkil edir. Azərbaycan dövləti yoluxan xarici vətəndaşları öz ölkələrinə deportasiya etmədi, humanistlik, dünyaya nümunə olan böyük insanpərvərlik göstərərək xarici vətəndaşları da dövlətin hesabına müalicə edir. Yeri gəlmişkən, koronavirusa tutulmuş Almaniya vətəndaşının Azərbaycan dövləti tərəfindən müalicə edilərək öz ölkəsinə yola salınması faktını yadınıza salmaq istəyirik. Almaniya dövləti Azərbaycan dövlətinin bu humanist addımını yüksək qiymətləndirərək ölkəmizə rəsmi təşəkkürünü bildirməyi də unutmadı. Belə faktlar çoxdur, yeri gəldikcə, biz bu faktlarla oxucularımızı tanış edəcəyik.

Faktı şərh edən siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dövləti bu virusla mübarizədə çoxsaylı nümunə ortaya qoyub: "Azərbaycan dövləti, ümumiyyətlə, bu bələ ortaya çıxandan özünün və qlobal təhlükəsizliyin qayğısına qaldığını göstərdi. Xatırlayırsınızsa, dövlətimiz COVID-19-a qarşı mübarizə aparılması üçün Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar ianə yatırdı. Bununla da Azərbaycan təkcə özünü deyil, bütün bəşəriyyəti düşündüyünü göstərdi. Təbiidir ki, Azərbaycan dövləti ölkəmizdə olan xarici vətəndaşların da heç birinin qarşısında "çıxın öz ölkənizə gedin" tələbi qoymadı, virusa yoluxanları da heç bir ayrı-seçkilik etmədən vətəndaşları kimi karantinə aldı, müalicəsini həyata keçirdi. Ümumiyyətlə, Dövlət Miqrasiya Xidmətinə də əlavə tapşırıqlar verildi ki, ölkədə olma müddəti bitənlərin belə bürokratik əngəllərlə qarşılaşmaması üçün tədbirlər görülsün. Bunun nəticəsində də xarici vətəndaşların ölkəmizdə qalma müddəti uzadıldı. Bilirik ki, bu gün Azərbaycanda qalma müddəti bitmiş əcnəbu vətəndaşların ölkəmizdən çıxıb getməsi üçün heç bir tələb qoyulmayıb, əksinə, onların ölkədə qalması məsələsi tamamilə qanunilədirilib. Koronavirus bitənə qədər o insanlar ölkəmizdə qalacaqlar. Bundan sonra isə qanun çərçivəsində qalmaq istəyən qalacaq, getmək istəyən gedəcək. Əsas məsələ odur ki, koronavirus dövründə Azərbaycanın ölkəmizdəki əcnəbilərlə vətəndaşlarımız arasında heç bir fərq qoymaması dövlətimizin ümumbəşəri dəyərlərə sədaqətindən irəli gəlir. Bu, Azərbaycan Prezidentinin Azərbaycan ərazisində, daxilində hər bir insanın təhlükəsiz, sağlam yaşaması, gəzib dolaşması haqqında dediklərinin, sadəcə, bir söz olmadığını bir daha sübut edir. Yəni Azərbaycan Prezidenti çıxışlarında qeyd edir ki, bizim ölkəmiz dinindən, milliyyətindən, irqindən, vətəndaşlığından asılı olmayaraq, dünyanın bütün insanları üçün ən sabit, ən təhlükəsiz ölkədir. Həqiqətən də indiki şəraitdə biz bunun şahidi oluruq".



*"...ölkəmizdəki əcnəbilərlə vətəndaşlarımız arasında heç bir fərq qoymaması dövlətimizin ümumbəşəri dəyərlərə sədaqətindən irəli gəlir"*

A.Həsrət bildirdi ki, koronavirus dövründə hər hansı bir ölkə xarici vətəndaşları deportasiya edirsə, öz ərazisindən çıxarırsa, bu, əlbəttə, humanizm prinsiplərinə ziddir. Azərbaycanın humanizm prinsiplərinə həmişə sədaqətli olduğunu qeyd edən A.Həsrətin sözlərinə görə, hər şeydən əvvəl insan amili, onun sağlamlığı, təhlükəsizliyi dayanır. Azərbaycan dövlətinin həmişə bu amili düşündüyünü və onu əyani şəkildə həyata keçirdiyini deyən A.Həsrət hesab edir ki, dövlət olaraq indiki şəraitdə də humanizm, insanlıq prinsiplərinə uyğun davranırıq. "Düşünürəm ki, koronavirus dövrü bitdikdən sonra dünya ölkələrində, dünyanın müxtəlif beynəlxalq institutlarında araşdırmalar, təhlillər aparılacaq, o zaman Azərbaycanın davranışları bir çox, hətta inkişaf etmiş dövlətlər üçün model olaraq təklif ediləcək.

Hər halda, gözləyirəm ki, koronavirusdan sonrakı dönəmdə Azərbaycanla bağlı qlobal səviyyədə çox müsbət xəbərlər eşidə biləcəyik. Onsuz indi də eşidirik. Beynəlxalq təşkilatlar Azərbaycan dövlətinin koronavirusa qarşı verdiyi töhfələri dönə-dönə dilə gətirir, eyni zamanda da ölkə içində atdığımız addımları bəyənir, model olaraq qəbul edirlər. Hətta bu məsələdə başqa ölkələrə Azərbaycan dövləti kimi davranmağı tövsiyə edən nüfuzlu siyasi xadimlərin fikirlərinə də rast gəlirik" - deyə A.Həsrət qeyd etdi.

***İradə SARIYEVA***

**Məlum olduğu kimi, 2020-ci ildə Azərbaycanda Dövlət İnvestisiya Holdinqi və İnşaat Korporasiyası yaradılacaq. Nazirlər Kabineti koronavirus (COVID-19) pandemiyasından zərər çəkmiş sahibkarlıq subyektlərinə və əhaliyə dəstəyin göstərilməsi üçün Tədbirlər Planını təsdiq edib.**

*"Şəhərsalma standartına əməl edilməsi və tikinti normalarının təkmilləşdirilməsi istiqamətində Dövlət İnvestisiya Holdinqi və İnşaat Korporasiyasının yaradılması..."*

# Azərbaycanda yeni iqtisadi qurumlar - Dövlət İnvestisiya Holdinqi və İnşaat Korporasiyası...

***Nüsrət İbrahimli:** "Korporasiyanın yaradılması tikinti sektorunda ümumi siyasəti formalaşdıracaq"*



Plana əsasən, bu il ərzində Azərbaycan İnşaat Korporasiyası yaradılacaq. Məqsəd postpandemiya dövründə tikinti sektorunda strateji layihələrin həyata keçirilməsidir.

Korporasiyanın funksiyalarına tikinti sahəsində strateji layihələrin işlənməsi; bu layihələrin maliyyələşməsinə investorların cəlb edilməsi; dövlət tərəfindən yeni tikinti layihələri üçün yerlərin ayrılması və zəruri infrastrukturun yaradılması; multifunksional tikintini təmin edən pilot layihənin həyata keçirilməsi daxil olacaq.

Maraqlıdır, Azərbaycanda Dövlət İnvestisiya Holdinqi və İnşaat Korporasiyasının yaradılması qeyd olunan sahədə nəyi dəyişəcək?

Məsələ ilə bağlı fikir bildirən Nüsrət İbrahimli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, hazırda ölkədəki tikinti şirkətlərinin sayı çoxluq təşkil edir. Həmin tikinti şirkətlərinin fəaliyyətini tənzimləmək və müəyyən istiqamətlər üzrə yönəltmək baxımından ötən illər ərzində çətinlik yaşanırdı: "Belə bir holdinqin yaradılması tikinti sektorunda ümumi siyasəti formalaşdıracaq.

**Şəhərsalma standartına əməl edilməsi və tikinti normalarının təkmilləşdirilməsi istiqamətində Dövlət İnvestisiya Holdinqi və İnşaat Korporasiyasının yaradılması faydalı bir addım olacaq. Məlumat üçün bildirim ki, Sovet dönəmində də tikinti sektoruna nəzarət edən xüsusi bir qurum var idi. Hazırda belə korporasiyanın yaradılmasına ehtiyac var".**

***Günel CƏLİLOVA***

**Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi üçün ayrılan kompensasiyanın məbləği məlum olub.**

*"Bu o deməkdir ki, hər bir VÖEN-lə işləyən vətəndaş üçün 267 manat ayrılacaq"*

# Azərbaycanda sahibkarlara bu maddə altında 80 milyon manatlıq da dəstək paketi var

***Rəsul Cahangirli:** "Sözügedən qərar fərdi sahibkarlıq subyektlərinə mövcud çətin vəziyyətdən çıxmağa kömək edəcək"*



Bu barədə Nazirlər Kabinetinin aprelin 4-də təsdiqlədiyi "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli, 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"nda qeyd olunub.

Tədbirlər Planına əsasən, 2020-ci il ərzində pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi (mikro) sahibkarlara (iş yerlərinin azaldılmaması məqsədilə əsas meyar kimi 2019-cu ildə vergi ödənişlərini, məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta ödənişlərini həyata keçirmiş vergi ödəyicilərinə şamil edilməklə) 80 milyon manat maliyyə dəstəyi veriləcək.

Görünən odur ki, hökumət bütün sahibkarlıq subyektlərinə, o cümlədən, fərdi sahibkarlara da yardım edəcək. Koronavirusdan zərər görən fərdi sahibkarlara maliyyə yardımının göstərilməsinin əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bu, fərdi sahibkarlıq subyektlərinə mövcud çətin vəziyyətdən çıxmağa kömək edəcək: "Ona görə də belə bir qərarın qəbul olunmasına müsbət yanaşıram. Çünki belə bir qərarın qəbul olunmasında məqsəd odur ki, fərdi sahibkarların üzləşdiyi zərər qarşılansın. Nəticədə iş yerlərinin sayı azaldılmasın və həmin sektorlarda çalışanlar əməkhaqqı ala bilsinlər. Ona görə də kim fərdi sahibkarlıq sahələrində muzdlu işçi kimi əməkhaqqı müqaviləsinə malikdirsə, o zaman ona dövlət tərəfindən kömək olacaq. Həmin işçilər bu imkandan yararlana biləcəklər. Çünki elə şəxslər var ki, onlar VÖEN-lə işləyirlər. Bu o deməkdir ki, onlar mikro və ya fərdi sahibkar kimi fəaliyyət göstərirlər. Bu məqsədlə büdcədən 80 milyon manat vəsait ayrılacaq. Bu o deməkdir ki, hər bir VÖEN-lə işləyən vətəndaş üçün 267 manat ayrılacaq.

**Təbii ki, burada yenə də məbləğ mikro sahibkar kimi fəaliyyət göstərən vətəndaşlarımızın əvvəlki dövrdəki gəlirlərindən asılı olaraq dəyişə bilər. Çünki burada əsas meyar ondan ibarətdir ki, həmin mikro və ya fərdi sahibkar 2019-cu ildə vergi ödənişlərini, eləcə də məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta ödənişlərini həyata keçirmiş olsun. Qeyd olunan tələblərə uyğun fəaliyyətləri varsa, o zaman həmin şəxslər sözügedən yardımdan faydalana biləcəklər. Bütün hallarda, sözügedən qərarın qəbul olunması sahibkarların xeyrinədir".**

***Vidadi ORDAHALLI***

**Bu ilin aprel ayında Azərbaycanda pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən, kiçik və orta sahibkarlığa) veriləcək 500 milyon manat məbləğində bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması üçün İpoteka və Kredit Zəmanət Fonduna (İKZF) əlavə 20 milyon manat ayrılacaq.**

# Koronavirusla mübarizə dövründə sosial paketlərin davamlılığına daha bir fakt - ipoteka kreditlərinə əlavə 90 milyon manat...

## *Vüqar Bayramov: "Vətəndaşlar güzəştli ipoteka kreditlərindən yararlanaraq mənzil problemlərini həll edəcəklər"*



Bu, Nazirlər Kabinetinin təsdiq etdiyi, "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" ölkə Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı Tədbirlər Planında öz əksini tapıb.

Bundan başqa, güzəştli ipoteka kreditlərinin verilməsi üçün by ay İKZF-yə əlavə 90 milyon manatın ayrılması nəzərdə tutulub.

*"Güzəştli ipoteka kreditlərinin həcmində artımlar olacaq, bu məqsədlə 90 milyon manat vəsait ayrılacaq"*

Güzəştli ipoteka kredtinin verilməsi üçün 90 milyon manatın ayrılmasının əhəmiyyəti barəsində danışan millət vəkili Vüqar Bayramov qeyd etdi ki, İpoteka və Kredit Zəmanət Fondunun formalaşdırılması daha çox sahibkarlıq subyektlərinə dövlət zəmanəti ilə kreditlərin verilməsi və eləcə də kredit faizlərinin subsidiyalaşdırılması nəzərdə tutulur: "Subsidiyalaşdırma, nəticə etibarilə, faizin əhəmiyyətli hissəsinin dövlət tərəfindən ödənilməsi deməkdir.

**Bu istiqamətdə 20 milyon manat vəsait ayrılacaq. Güzəştli ipoteka kreditlərinin həcmində artımlar olacaq, bu məqsədlə 90 milyon manat vəsait ayrılacaq. Vətəndaşlar güzəştli ipoteka kreditlərindən yararlanaraq mənzil problemlərini həll edəcəklər".**

***Günel CƏLİLOVA***

**Azərbaycanda dövlətə məxsus əmlakların icarəsində biznesə güzəşt ediləcək. Bu, Nazirlər Kabinetinin sərəncamı ilə təsdiqlənən koronavirus və onun bütün dünyada olduğu kimi, Azərbaycan iqtisadiyyatı və biznesinə mənfi təsirini aradan qaldırmaq üçün iqtisadiyyata və biznesə dəstək üçün Tədbirlər Planında nəzərdə tutulub.**

*"Bu imkan verəcək ki, onların üzləşdiyi itkilər azalsın"*

# Koronavirusun ziyanlı nəticələrinə görə hansı sahibkarlar əmlak və yer üçün icarə haqqından azad edilir...

## *Ruslan Atakişiyev: "Bunun sayəsində həmin sahibkarlıq subyektləri həm xərclərinə qənaət etmiş olacaqlar, həm də..."*

Plana əsasən, dövlət əmlakını icarəyə götürmüş və pandemiya nəticəsində zərər çəkmiş sahibkarlıq subyektlərindən (o cümlədən, kiçik və orta sahibkarlardan) icarə haqqı 2020-ci ilin sonunadək tutulmayacaq. Bundan başqa, dövlət torpaq fonduna aid torpaq sahələrini icarəyə götürmüş və pandemiya nəticəsində zərər çəkmiş sahibkarlar (o cümlədən, kiçik və orta sahibkarlar) tərəfindən ödənilən icarə haqları da 2020-ci ilin sonunadək tutulmayacaq.

Bununla belə, dövlət sənaye məhəllələrində fəaliyyət göstərən sahibkarlara da güzəşt etmək niyyətindədir. Plana görə, sənaye məhəllələrində pandemiyanın mənfi təsir etdiyi sahələr üzrə fəaliyyət göstərən rezidentlərin icarə haqlarının 2020-ci ilin sonunadək hesablanmaması nəzərdə tutulur.

Bütün bunların fonunda, sözügedən kateqoriyaya aid olan sahibkarlıq subyektlərinin ilin sonuna qədər icarə haqlarından azad edilməsi nə verəcək? Bu, sahibkarların maddi durumuna ümumən nə kimi müsbət təsir göstərəcək?

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyevin sözlərinə görə, sahibkarlara icarə haqları ilə bağlı güzəştlərin edilməsi mühüm əhəmiyyət kəsb edir: "Məsələ ondadır ki, pandemiya bir sıra iqtisadi sahələrə böyük mənfi təsir göstərir. Belə vəziyyətdə bir sıra şirkətlərdə, xüsusən də böyük şirkətlərdə icarə haqlarının ödənilməsində problemlər yaşanır. Ona görə də icarə haqlarının ödənilməsində yaranan problemlərin aradan qaldırılması ilə bağlı dövlət güzəştlər edəcək. Burada söhbət dövlət əmlakını, torpaqlarını icarəyə götürən sahibkarlara ediləcək icarə güzəştlərindən gedir.



Həmçinin, sənaye məhəllələrində pandemiyanın mənfi təsir etdiyi sahələr üzrə fəaliyyət göstərən rezidentlər icarə haqlarından azad ediləcək.

Bunun sayəsində həmin sahibkarlıq subyektləri həm xərclərinə qənaət etmiş olacaqlar, həm də digər problemlərini qismən həll edəcəklər. Nəzərə almaq lazımdır ki, icarə xərcləri sabit xərclərə aiddir. Müəssisə işləyəndə orada sabit xərclər, bir də dəyişən xərclər olur. Ona görə də müəssisənin fəaliyyəti dayananda sabit xərclər böyükdürsə, belə hallar müəssisəyə ziyan gətirir. Bu baxımdan sabit xərclərə güzəşt edilir ki, sahibkarlıq subyektləri böyük itkilərlə üzləşməsinlər. Hesab edirəm ki, dövlət tərəfindən edilən bu güzəşt sahibkarların xeyrinədir. Bu imkan verəcək ki, onların üzləşdiyi itkilər azalsın".

***Vidadi ORDAHALLI***

# Əhaliyə güzəştli tariflə işıq limiti artırılır - 200+...

**Əhaliyə güzəştli işıq limiti aprel-may aylarında 100 kvts. həcmində artırılacaq. Məlum olduğu kimi, sözügedən məsələ Nazirlər Kabinetinin təsdiq etdiyi, "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" ölkə Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı Tədbirlər Planı"nda öz əksini tapıb.**

*"Nəzərə almaq lazımdır ki, havalar soyuq olanda elektrik enerjisinə tələbat artır"*

***Əli Əlirzayev:** "İndiki şəraitdə güzəştli işıq limitinin artırılması müsbət addımdır"*

Məlum olub ki, sözügedən məqsədlə dövlət büdcəsindən 10 milyon manat ayrılacaq. Bununla da əhali qrupu üçün elektrik enerjisindən güzəştli istifadə limiti 100 kvts. həcmində müddətli artırılıraq 300 kVt/saatdan 400 kVt/saata çatdırılacaq. Sənədə əsasən, İqtisadiyyat və Maliyyə nazirlikləri bu tədbirin icrasını təmin etməlidirlər.

Görünən odur ki, Tədbirlər Planında əksər tərəflərin mənafeyi nəzərə alınıb. O cümlədən, əhaliyə satılan güzəştli işıq limitinin həcmi 100 kilovat/saat olmaqla 2 ay artırılıb.

Ümumlikdə, əhaliyə güzəştli tariflə işıq limitinin artırılmasının əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-alim Əli Əlirzayev hesab edir ki, indiki şəraitdə güzəştli işıq limitinin artırılması müsbət addımdır: "Məsələ ondadır ki, koronavirusla bağlı tətbiq edilən karantin tədbirləri ilə əlaqədar olaraq insanlar evdə qalır. Bu zaman elektrik enerjisi istehlakı artır. Mən özüm həyət evində yaşayıram. Həqiqətən də enerji çox istehlak olunur. Düzdür, əvvəldən limitin tətbiqinin tərəfdarı olmamışam. Ancaq belə bir qayda qoyulubsa, buna əməl etmək lazımdır. Nəzərə almaq lazımdır ki, havalar soyuq olanda elektrik enerjisinə tələbat artır. Bir sıra binalarda, o cümlədən, həyət evlərində mərkəzləşmiş istilik sistemi yoxdur. Evləri qızdırmaq üçün kombi sistemndən geniş istifadə edilir. Bu zaman elektrik enerjisi istehlakı artır. Limitin artırılması əhalinin xərclərinin azalması deməkdir. Yaxşı olardı ki, 4 aya qədər limit artırılsın. Fikrimcə, bir ailəyə düşən xərci azaltmaq ona yüksək məvacib verməkdən yaxşıdır. Bir var 1000 manat məvacib alıb onun 400 manatını kommunal xərclərə yönəldəsən, bir də var 500 manat alasan və daha az kommunal ödənişlər edəsən. Ona görə də indiki şəraitdə enerji ilə bağlı edilən güzəştlərə müsbət yanaşıram. Düşünürəm ki, bu, istehlakçıların xərclərinin azalmasına müsbət təsir edəcək".



***Vidadi ORDAHALLI***

# Ölkədə süni un qıtlığı yaratmaq cəhdləri var - bəzi marketlər 50 kq un kisəsini 26-dan 28-30 manata qaldırıb

**Məlum olduğu kimi, hazırda koronavirus epidemiyası ilə əlaqədar ölkə ərazisində ciddi karantin rejimi hökm sürür. Görülən ciddi tədbirlər çərçivəsində insanların evlərində qalmaları tələb olunur. Vətəndaşların bir qismi bu qaydaya əməl edir.**

***Qubad İbadoğlu:** "Topdansatış müəssisələrin çoxunda un satışı dayandırılıb, qiymətin daha da bahalaşmasını gözləyirlər"*

Bəzi insanlar karantin dövründə ölkədə ərzaq çatışmazlığının olacağını düşünüb marketdən çoxlu sayda ərzaq alıblar. Bundan istifadə edən bəzi işbazlar marketlərdə unun satışını dayandırıblar.

Hazırda marketlərdə un çatışmazlığı yaşanır. Bəzi marketlərdə isə unun satış qiyməti artıb. Belə ki, 50 kiloqramlıq əla növ unun 1 kisəsinin qiyməti 26 manatdan 28-30 manata qalxıb.

Qeyd edək ki, Azərbaycanın ərzaq buğdasına olan illik ehtiyacı 1.3-1.5 milyon tondur və biz əsasən bu növ buğdanı idxal edirik, ötən il buğda idxalının da elə o civarda olması dəhşətli bir həqiqətdən xəbər verirdi.

**Belə çıxırdı ki, Azərbaycan ehtiyac duyduğu ərzaq buğdasının tamamını xaricdən alır. Ölkəmizdə istehsal olunan təxminən 3 milyon tonluq buğda isə ya itkiyə gedir, ya da texniki məhsul kimi toyuq-cücələrə yedizdirilir.**

İqtisadçı-ekspert Qubad İbadoğlu bildirdi ki, hazırda un qıtlığı yaranıb, qiyməti sürətlə bahalaşır: "50 kiloqramlıq əla növ unun 1 kisəsinin qiyməti 26 manatdan 28-30 manata qalxıb.

**Hətta bu qiymətə də una tələbat kəskin artdığına görə topdansatış müəssisələrin çoxu satışı dayandırıb, qiymətin daha da bahalaşmasını gözləyirlər. Bu sürətlə bahalaşma davam edərsə, yəqin ki, yaxın günlərdə qiymət 35 manat olacaq".**

Həmsöhbətimiz onu da əlavə etdi ki, un qıtlığı yaradılmasının vaxtında müəyyən edilməsi və unun qiymətinin qalxmasının qarşısının alınması məqsədilə aidiyyəti qurumlar tərəfindən intensiv monitorinq və yoxlamalar aparılmalıdır.




***Günel CƏLİLOVA***

# Koronavirusla mübarizə Azərbaycanda investisiya qoyuluşunda yeni mərhələ açır - qaranlıqdakı əmlak və kapital amnistiya hüququ ala bilər

**Azərbaycanda iqtisadi artımın və investisiyaların maliyyə mənbələrinin genişləndirilməsi məqsədilə 2020-ci ilin aprel-dekabr ayları ərzində ölkədə kapitalın və əmlakın amnistiyası nəzərdən keçiriləcək.**

Bu, Nazirlər Kabinetinin aprelin 4-də təsdiqlədiyi "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli, 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planında əksini tapıb.

Sənədə əsasən, bu sahədə icraçı qurumlar İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi və Mərkəzi Bank müəyyənləşdirilib.

Hazırkı həssas dövrdə sahibkarların sərmayə qoyması, məşğulluğun təmin olunması baxımından bu qərar nə kimi stimullaşdırıcı rola malikdir?

Məsələyə münasibət bildirən maliyyə eksperti Əkrəm Həsənov buna müsbət prizmadan yanaşır. Onun fikrincə, indiki dövrdə buna ehtiyac var: "Hər şey hökumətin amnistiyanın hansı modelini seçəcəyindən asılıdır. Amnistiya edilən əmlakın və gəlirin siyahısından, harada yerləşməsindən, amnistiyanın tətbiqi müddətindən asılı olaraq, dünyada onun müxtəlif formaları tətbiq edilib. Azərbaycanda gəlirlərin və əmlakın leqallaşdırılması müddəti iki ildən artıq təşkil etməməlidir. Azərbaycan şəraitində kapitalın və əmlakın amnistiyası Konstitusiya qanununun qəbulu yolu ilə tətbiq edilməlidir. Bu onun üçün vacibdir ki, sahibkarlarda bu addımın geriyə yolunun olmamasına Konstitusiya zəmanəti olsun. Bundan əlavə, vətəndaşlara bu amnistiyanın mübahisələri ilə bağlı yerli məhkəmə qərarlarından beynəlxalq məhkəməyə şikayət etmək hüquqi verilməlidir. Bununla belə, hesab edirəm ki, kapitalın və əmlakın amnistiyasında

*Əkrəm Həsənov: ”Dövlətin kapital və əmlakın amnistiyası təşəbbüsünü dəstəkləyirəm”*



dövlət onlara heç olmasa simvolik birdəfəlik vergi qoyacaq. Məsələn, bu vergi leqallaşdırılan vəsaitlərin 10 faizi qədər ola bilər. Bu, dövlətin maliyyə çətinlikləri ilə üzləşə biləcəyi indiki şəraitdə məntiqlidir. Kapitalın və əmlakın amnistiyası müxtəlif yollarla ölkədən çıxarılan kapitalın qaytarılmasına gətirib çıxara bilər. Sözügedən gəlirlərin leqallaşdırılması zamanı dövlət iki üsul tətbiq edə bilər: bəyan edilən gəlirin 30 faizə qədər birdəfəlik vergi ödəmək şərtilə mənşəyinin leqal olması ilə bağlı zəmanət məktubu və 5 faizdən çox olmayaraq, birdəfəlik vergi ödəmək şərtilə gəlirlərin tam geri qaytarılması".

***Vidadi ORDAHALLI***

# Azərbaycanda 200 min vətəndaşın hərəsi 190 manat dövlət yardımı alacaq - kimlərdən söhbət gedir...

**Məlum olduğu kimi, bu ilin aprel-may aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətində işsiz kimi qeydiyyata alınmış 200 minə qədər şəxsə yaşayış minimumu qədər - 190 manat birdəfəlik ödəniş veriləcək.**

***Vüqar Bayramov:** ”Dövlət məşğulluq xidməti orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəniş həyata keçiriləcək”*

Bu məsələ Nazirlər Kabinetinin təsdiq etdiyi, "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" ölkə Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamının icrası ilə bağlı Tədbirlər Planında öz əksini tapıb.

İşsiz kimi qeydiyyata alınan şəxslərə 190 manat dəyərində ödəmə verilməsini ekspertər müsbət qarşılayırlar.

Millət vəkili Vüqar Bayramov bildirdi ki, Baş nazir tərəfindən təsdiq edilən Tədbirlər Planı həm məşğul əhalinin (muzdla işləyən vətəndaşlarımız), həm də işləməyən vətəndaşlarımızın sosial təminatını ehtiva edir, eyni zamanda, onlara birbaşa yardımın həyata keçirilməsini nəzərdə tutur: "Müvəqqəti məşğulluğun təmin edilməsi üçün koronavirusun aktiv olduğu dövrlərdə (güman olunur ki, bu dövr aprel və may ayları olacaq) 50 min vətəndaş üçün haqqı ödənilən iş yerlərinin yaradılması nəzərdə tutulub.

2 ay müddətinə 50 min vətəndaşımız üçün sosial və ictimai iş yerləri yaradılacaq.




Bu məqsədlə büdcədən 30 milyon manat vəsait ayrılıb. Eyni zamanda, dövlət məşğulluq xidməti orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödənişin həyata keçirilməsi nəzərdə tutulub.

**Burada söhbət 200 min vətəndaşdan gedir. Bu istiqamətə dövlət tərəfindən 70 milyon manat vəsait ayrılacaq. Bu 2 ay müddətində həmin vətəndaşlarımıza 190 manat vəsaitin ödənilməsi təmin ediləcək".**

***Günel CƏLİLOVA***

# Zəruri hesab edilən məhsullar üçün idxal rüsumunun sıfırlanması bazarlarda vəziyyəti necə dəyişəcək...

**Koronavirus (COVID-19) pandemiyası ilə bağlı əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan və ölkəyə idxal olunan müvafiq məhsulların tam və fasiləsiz təmin edilməsi məqsədilə həyata keçiriləcək tədbirlər açıqlanıb.**

*"Bu güzəşt həm sahibkarların, həm də istehlakçıların mənafeyinə uyğundur"*

Bu, Nazirlər Kabinetinin təsdiqlədiyi "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli, 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"nda əksini tapıb.

Sənədə əsasən, 2020-ci il ərzində İqtisadiyyat Nazirliyi və Dövlət Gömrük Komitəsi zəruri hesab edilən məhsullar üzrə idxal rüsumlarının müddətli olaraq "0" dərəcəyə endirilməsi (və ya azaldılması) və zəruri hesab edilən məhsulların idxalı zamanı həyata keçirilən gömrük rəsmiləşdirilməsi, nəzarət və icazələrin (sertifikatların) verilməsi tədbirlərinin növbədənkənar (sürətləndirilmiş) tətbiqini təmin etməlidir.

Maraqlıdır, sözügedən məhsullar üzrə idxal rüsumunun dayandırılması bazarlardakı vəziyyətə necə təsir göstərəcək?

Məsələyə münasibət bildirən millət vəkili Aydın Hüseynovun sözlərinə görə, zəruri hesab edilən məhsullarla bağlı belə bir qərarın verilməsi önəmli əhəmiyyət kəsb edir: "Çünki zəruri hesab edilən məhsulların qiymətinin sabit qalması çox vacibdir. Məlum olduğu kimi, koronavirusla əlaqədar tətbiq olunan məhdudiyyətlər müəyyən çətinliklər yaradır. Bu çətinlikləri önləmək üçün hökumət bir sıra vacib qərarlar qəbul edir. Onlardan biri də

*__Aydın Hüseynov:__ "Hesab edirəm ki, bu qərar bazarlarda zəruri istehlak mallarının qiymətinin sabit qalmasına müsbət təsir edəcək"*



zəruri hesab edilən məhsullar üzrə idxal rüsumlarının müddətli olaraq dayandırılmasıdır. Hesab edirəm ki, bu qərar bazarlarda zəruri istehlak mallarının qiymətinin sabit qalmasına müsbət təsir edəcək.

Hansısa neqativ halların yaranmasının qarşısını alacaq. Sözügedən güzəşt həm də tibbi avadanlıqların və dərmanların qiymətinin sabit qalmasına öz müsbət təsirini göstərəcək. Deməyim odur ki, bu qərarın bir sıra üstünlükləri var. Ən nəhayət, hesab edirəm ki, bu güzəşt həm sahibkarların, həm də istehlakçıların mənafeyinə uyğundur".

***Vidadi ORDAHALLI***

# Koronavirusun Azərbaycanda həyatı iflic edə bilmədiyinə daha bir sübut - teatrlar da onlayn fəaliyyətə başlayıb

**Ölkəmizdə mövcud olan karantin rejimi ilə əlaqədar olaraq, bir sıra sahələrdə olduğu kimi, mədəniyyət müəssisələri də müvəqqəti olaraq qapadılıb. Bu gün paytaxtda və bölgələrdəki bütün teatrların səhnədə fəaliyyətini dayandırmasına baxmayaraq, teatrların kollektivləri onlayn tamaşalarla tamaşaçıların görüşünə gəlirlər.**

*"Virus dövründə həyata keçirilən bu işlər göstərdi ki, heç bir xəstəlik, problem Azərbaycan insanının həyatını iflic edə bilməz"*

Məlum olduğu kimi, Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə mart ayının sonundan etibarən onlayn tamaşalar göstərilir. Nazirlikdən aldığımız məlumata görə, həm paytaxtda, həm bölgələrdə fəaliyyət göstərən teatrlar web saytlar, "YouTube" kanalı, sosial şəbəkələr vasitəsilə tamaşaların nümayişini həyata keçirirlər. Bir sıra teatrların saytlarında virtual repertuar formalaşdırılıb. Bu repertuara müxtəlif yaş kateqoriyasına aid tamaşalar yerləşdirilib. Qeyd edək ki, onlayn tamaşalara baxış ödənişsizdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, aktrisa Zülfiyyə Eldarqızı "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, teatrlar həmişə xalqımızın çətin, sınaq günlərində öz maraqlı repertuarları ilə tamaşaçıların görüşünə gəliblər. Z.Eldarqızının vurğuladığına görə, bütün teatrlar sosial izolyasiyanın, "Evdə qal" layihəsinin tələblərinə uyğun fəaliyyətini qurub. "Əlbəttə ki, bu gün çox çətin günlər yaşayırıq. Hətta deyərdim ki, koronavirusla mübarizə xalqımızın növbəti sınaqlarından biridir. Teatrlar da bu ağır günlərdə xalqımıza, dövlətimizə dəstək olurlar. Sosial izolyasiya dövründə insanlar evdə qalırlar və həmin insanların mədəniyyət nümunələri, o cümlədən də kino və tamaşalarla təmin edilməsi zərurətə çevrilib. Mən özüm neçə vaxtdır evdəyəm və deməkolar ki, hər gün teatrlarımızın müxtəlif maraqlı tamaşalarına baxıram, onlar arasında klassik tamaşalar da var. İnanın ki, bu tamaşalar çox maraqlıdır. Böyük sənətkarlarımızın rol aldığı tamaşaların da onlayn təqdimatı həm indi həyatda olmayan o sənətkarların gənclərə tanıdılmasında, həm tamaşalarımızın təbliğində, həm də tamaşaçıların bədii-estetik zövqünün formalaşmasında mühüm rol oynayır. Hesab edirəm ki, karantin dövründə teatrlarımızın onlayn fəaliyyət göstərməsi və bu şəkildə tamaşaçılar qarşısına çıxması özü bir yeni təcrübədir. Bu təcrübə həm teatrlar, həm də tamaşaçılar üçün yeni bədii-estetik hadisə sayılır. Bu gün teatrlarımızın onlayn fəaliyyətə keçməsi, tamaşalarını onlayn şəkildə təqdim etməsi koronavirusla mübarizə dövründə vətəndaşlarımıza, dövlətin həyata keçirdiyi saysız tədbirə böyük bir dəstəkdir. Yəni teatrların binaları müvəqqəti olaraq bağlansa da, teatrların kollektivləri öz fəaliyyətlərini dayandırmayıblar. Virus dövründə həyata keçirilən bu işlər göstərdi ki, heç bir xəstəlik, problem Azərbaycan insanının həyatını iflic edə bilməz. Çünki xalq olaraq, dövlət olaraq, bu bəlaya qarşı birgə mübarizə aparmağı bacarırıq".

*__Zülfiyyə Eldarqızı:__ "Bu gün teatrlarımızın onlayn fəaliyyətə keçməsi, tamaşalarını onlayn şəkildə təqdim etməsi koronavirusla mübarizə dövründə vətəndaşlarımıza, dövlətin həyata keçirdiyi saysız tədbirə böyük bir dəstəkdir"*



Z.Eldarqızı, həmçinin, qeyd etdi ki, bu gün bütün dünya koronavirusdan can qurtarmaq üçün sosial təcridə üstünlük verir və xarici ölkələrdə də teatrlar, başqa mədəniyyət qurumları onlayn şəkildə fəaliyyət göstərirlər.

***İradə SARIYEVA***

№ 51 (4182) ■ Qiyməti: **40 qəpik**

# BAKI XƏBƏR

**7** APREL 2020-ci il

www.baki-xeber.com



# COVID-19-dan dərmansız necə yaxa qurtarmaq olar?

**Melburn Universitetinin alimləri o qənaətə gəliblər ki, yaxşı immuniteti olan insan orqanizmi koronavirus infeksiyasını müstəqil dəf etməyə qadirdir.**

"Sputnik Azərbaycan" bildirir ki, bu barədə tədqiqatın nəticələri "Nature Medicine" jurnalında dərc edilib. Araşdırmanın obyekti Avstraliyaya gələn Çinin Uhan şəhərinin 47 yaşlı sakini olub. Daha sonra onu COVID-19-un simptomları ilə - zəiflik, nəfəs darlığı, quru öskürək və yüksək temperatur əlamətləri ilə xəstəxanaya yerləşdiriblər. Qeyd olunur ki, xəstənin patoloji xəstəlikləri və zərərli vərdişləri olmayıb. Xəstəxanada olarkən qadına antibiotiklər və ya virus əleyhinə preparatlar təyin edilməyib. Həkimlərin həyata keçirdiyi yeganə tədbir bədəndə su balansının saxlanması üçün vena daxilinə maye yeritmək olub. Nəticədə xəstə iki həftə sonra tamamilə sağalıb. Onun qan testlərinin nəticələri immun sisteminin hüceyrələrinin artdığını göstərib ki, bu da adi mövsümi qripə qarşı mübarizədə orqanizmin xarakterik reaksiyasıdır. "Araşdırmamız göstərir ki, COVID-19-un yeni bir virus kimi yaranmasına baxmayaraq, əvvəllər sağlam olmuş insanların orqanizmində bu virusdan sağalandan sonra adi qripdə olduğu kimi davamlı immun cavabı görürük", - deyə tədqiqatın müəlliflərindən biri Ketrin Kedzirska bildirib. Alimlər qeyd ediblər ki, bu hadisə müalicə prosesinin başa düşülməsi istiqamətində ciddi addımdır və tədqiqatın nəticələrindən xəstəliyin müalicəsi metodlarının təkmilləşdirilməsində istifadə edilə bilər. Xatırladaq ki, koronavirus infeksiyası ötən ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Hazırda virus dünyanın əksər regionu və ölkəsində yayılıb. Dünyada koronavirus infeksiyasına indiyədək yoluxanların sayı 700 min nəfəri keçib, 33 mindən çox adam isə virus səbəbi ilə ölüb. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) fevralın 11-də infeksiyanın adını "COVID-19" qoyub, martın 11-də isə koronavirusu pandemiya elan edib.

## Yava panqolinlərində SARS-CoV-2-yə bənzəyən koronaviruslar aşkar edilib



**Yava adasında yaşayan panqolinlərdə genetik baxımdan SARS-CoV-2-yə bənzəyən koronaviruslar aşkar edilib.**

"Oxu.az" xəbər verir ki, bunu Sidneyin və Çinin bir sıra universitetlərinin araşdırmaçıları aşkar ediblər. Bunun üçün alimlər 18 panqolinin qanını, həmçinin, ağciyər və bağırsaq hüceyrələrini təhlil ediblər. Mütəxəssislərin aldığı 43 nümunədən altısında koronaviruslar aşkar edilib. Onların SARS-CoV-2 ilə bənzərliyi 85,5-92,4% təşkil edib.

## 2020-ci ildə kişiləri şoka salacaq dəb...

**Hindistanlı modelyer Xarikrişnananın yeni dəbi internetdə ən çox müzakirə olunanlar sırasındadır.**

"Lent.az" xəbər verir ki, söhbət onun ideya müəllifi olduğu qeyri-adi görünüşlü geyimlərdən gedir. Belə ki, modelyerin yeni dəbinin görkəmi üfürülmüş şarı xatırladır. Xarikrişnana iti ilə oynayarkən bu ideyanı düşündüyünü bildirib. Həmin paltarların 2020-ci il kişi geyimləri üçün ərsəyə gəldiyi də qeyd olunur. London moda kollecində baş tutan sərginin əsas diqqət mərkəzi məhz bu geyimlər olub.

## "Nar" koronavirusla mübarizəyə dəstək tədbirləri çərçivəsində abunəçilərə səyyar xidmət göstərməyə başladı

**Ölkədə yayılmış koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinə dəstək olaraq "Nar", abunəçilərinin evdən çıxmadan zəruri xidmətləri ala bilməsi üçün "Səyyar Nar" layihəsinə start verib. Bu xidmət sayəsində Bakı - Abşeron və Sumqayıt ərazilərində yaşayan abunəçilər evlərini tərk etmədən lazımi əməliyyatları birbaşa ünvanlarında əldə edə biləcəklər.**

Abunəçilər "Nar" xidmət mərkəzlərində göstərilən bütün xidmətlər üçün, eləcə də duplikat və nömrə bərpası əməliyyatları üçün "Səyyar Nar"a müraciət edə bilərlər. Müraciətlər 24/7 gücləndirilmiş iş rejimində çalışan 777 "Çağrı mərkəzi" və mobil operatorun rəsmi sosial media səhifələri üzərindən qəbul edilir. Müraciət zamanı xidmətin göstəriləcəyi dəqiq ünvan, əlaqə nömrəsi və lazım olan xidmət növü qeyd edilməlidir.

Xatırladaq ki, abunəçilər tarif dəyişmə, balans artımı, internet paketlərinin aktivləşdirilməsi, izahlı qaimə və bir çox digər mühüm sorğularını "Nar+" tətbiqi vasitəsilə yerinə yetirə bilərlər.

"Nar" hər kəsi Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimatlarına əməl edərək zərurət olmadığı təqdirdə evdən çıxmamağa və koronavirusla mübarizə üçün imkanları səfərbər etməyə çağırır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8700-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.





**Qoç** - Dəyər verdiyiniz insanlarla, dostlarınızla birlikdə istirahət etməyə çalışın. Romantik görüşlər üçün də xoş axşamdır. Başqalarının təklif etdiyi, amma xoşunuza gəlməyən əyləncələrdən isə uzaq qaçın, belədə, bir çox problemdən yaxa qurtara bilərsiniz.



**Buğa** - İşgüzar məsələləri müzakirə etmək olar. Özünə inam, inadcıllıq, əzmkarlıq nümayiş etdirənlər danışıqlarda uğur qazanacaqlar. Güclü şəxsiyyətlər heç bir təzyiqlə üzləşməyəcəklər.



**Əkizlər** - Günün əvvəlində pis xəbər ala bilərsiniz, şərait çox gərgin olacaq. Özünüz də istəmədən və yersiz olaraq hamının diqqət mərkəzinə düşəcəksiniz. Baş verənlərdən narazılığınızı gizlətmək çətindir, amma məcbursunuz.



**Xərçəng** - Əvvəldən düşündüyünüz planlara riayət etmək çətindir, onları yenidən gözdən keçirib, uyğunlaşmaq lazım gəlir. Axşam isə böyük güc sərf etmədən bütün problemlərinizi həll edə biləcəksiniz.



**Şir** - Hadisələr sizə göründüyü qədər də pis inkişaf etmir. İş burasındadır ki, siz bu gün bütün olanlara çox böyük şübhə ilə yanaşırsınız, istənilən dəyişikliyə pis münasibət bəsləyir və köhnəliyi saxlamağa çalışırsınız.



**Qız** - Vacib görüş və işlərinizi günün ortasına planlaşdırın. Çalışın, diqqətinizi cəmləyəsiniz, ideyalarınızı daha gözəl təqdimatla çatdırasınız, sizə hazırlanan tələləri vaxtında görə biləsiniz.



**Tərəzi** - İş üçün çox uğurlu gündür. Ötən həftənin problemlərini uğurla həll edir və yeni planların reallaşdırılmasına başlayırsınız. Özünüzə tərəfdaş və həmfikir tapmaq elə də çətin deyil, həmçinin onlarla işləmək də xoş olacaq.



**Əqrəb** - Sakit olun, təmkininizi pozmayın! Gün elə də yaxşı başlamır. Ancaq hər şey sizdən asılıdır. Əsas məsələ budur ki, həmkarlarınız və iş ortaqlarınızla dil tipa biləsiniz. Nə edirsiniz-edin, amma çalışın belə olsun.



**Oxatan** - Günün başlanğıcı çox mürəkkəb olacaq. Emosional fon sabit deyil, siz vurnuxur, özünüzü ora-bura çırpırsınız. Amma xoşbəxtlikdən, bu hal uzun sürməyəcək, siz tez sakitləşəcək, özünüzü ələ alacaqsınız.



**Oğlaq** - Günün ikinci yarısı kommersiya fəaliyyəti, sövdələşmələr üçün yaxşıdır. Düzdür, bu vaxt sizin daha çox pullar barədə düşünməniz sizi yaxşı tanımayan adamlarda düzgün olmayan təəssürat yarada bilər.



**Dolça** - Səhəri gərgin işə sərf etməli olacaqsınız. Problem və çətinliklər boğaza qədərdir, amma siz onların öhdəsindən gələcəksiniz. Öz vaxtınızdan maksimal dərəcədə səmərəli istifadə edə biləcəksiniz.



**Balıqlar** - Şəxsi münasibətlərdə isə vəziyyət bir qədər başqadır. İstənilən məsələyə praqmatik yanaşmağınız yaxınlarınızı təəccübləndirir və qıcıqlandırır. Ətrafınızdakıların həyəcanları sizi qətiyyən maraqlandırmır, istəmədən qəddarlıq edirsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Unikal limuzin - təyyarə satışa çıxarıldı

**"Mecum Auctions" hərrac evi unikal limuzin - təyyarə satışa çıxarıb.**



"Trend" xəbər verir ki, biznes təyyarənin limuzinə çevrilməsi 12 il davam edib. Limuzin - təyyarə 13 metr uzunluğundadır. Limuzinlə bərabər, satışa "Chevrolet 2500 HD" pikapı da çıxarılıb. Bu pikap limuzin - təyyarəni qoşquda daşımaq üçün istifadə olunacaq. Limuzinin ilkin satış qiyməti 5 milyon dollar dəyərləndirilir.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.